# YUNESKO – AZƏRBAYCAN: GƏLƏCƏYƏ KÖRPÜ

# UNESCO—AZERBAIJAN: BRIDGE TO FUTURE

1965

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

TƏHSİL
BAKI – 2005





YUNESKO – AZƏRBAYCAN:
# GƏLƏCƏYƏ KÖRPÜ

UNESCO – AZERBAIJAN:
# BRIDGE TO FUTURE

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2005

**T ə r t i b  e d ə n l ə r :**

*f.e.n., dos.* **Rasim Süleymanov,**
**Azad Axundov**

**Y91** «YUNESKO–Azərbaycan: gələcəyə körpü», Bakı, «Təhsil», 2005, 160 səh.

Topluya YUNESKO-nun Azərbaycanla əməkdaşlığının ən önəmli sahələrindən birinə–təhsilə həsr olunmuş beynəlxalq konfransın materialları daxil edilmişdir.

Konfrans 2005-ci il avqustun 24–25-də Bakıda keçirilmişdir.

«UNESCO–Azerbaijan: bridge to future», Baku, «Tahsil», 2005, 160 p.

Collection includes the proceeding of the International Conference held by the Ministry of Education of Azerbaijan and UNESCO.

Conference was held in August 24–25, 2005 in Baku.

Y $\frac{4304000000}{053}$ 2005

© «Təhsil», 2005



## «YUNESKO–AZƏRBAYCAN: GƏLƏCƏYƏ KÖRPÜ»

### Konfransın proqramı
*24 avqust 2005-ci il*

#### PLENAR HİSSƏ

**Mehriban Əliyeva**
***Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri***
**Koişiro Matsuura** – ***YUNESKO-nun Baş Direktoru***
Azərbaycan təhsili: problemlər, reallıqlar, perspektivlər
**Misir Mərdanov**–***Azərbaycan Respublikasının Təhsil Naziri***
Azərbaycanda qeyri-neft sektorunun inkişafında insan resurslarının rolu
**Marko Borsotti** – ***BMT-nin Rezident əlaqələndiricisi***
Qaçqın və məcburi köçkün uşaqların təhsilinin təşkili
**Əli Həsənov** – ***Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinin sədri***
Təhsilin inkişafına dəstək sahəsində YUNESKO-nun təcrübəsi
**Mir Əsgər Hüseyn**–***YUNESKO-nun Təhsil Siyasəti və Strategiyası Departamentinin direktoru***

#### *I BÖLMƏ:*

#### ALİ TƏHSİL (BAKI DÖVLƏT UNİVERSİTETİ)

XXI əsr: universitetlərin cəmiyyətdə yeri və rolu
**Abel Məhərrəmov** – ***Bakı Dövlət Universitetinin rektoru***
Qloballaşma şəraitində ali təhsilin problemləri
**Dendev Badarç**–***YUNESKO-nun Moskva bürosunun əməkdaşı***

Tələbə həyatının təşkili: müasir baxışlar və təcrübələr
**Hamlet İsaxanlı** – ***Xəzər Universitetinin rektoru***

*II BÖLMƏ:*

**ÜMUMİ ORTA TƏHSİL (HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMPLEKSİ)**

Ciriş sözü
**Elman Məmmədov** – ***Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin direktoru***
Keyfiyyətli təhsil: UNİCEF-in nöqteyi-nəzərindən
**Hanaa Singer** – ***UNİCEF-in Azərbaycandakı nümayəndəsi***
Davamlı insan inkişafı sahəsində fasiləsiz təhsil: konsepsiya və praktik tətbiq
**Urxan Ələkbərov** – ***YUNESKO-nun İnsan və Biosfer Milli Komitəsinin sədri, akademik***
BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında Qarşıhqlı Anlaşma Memorandumu



**Mehriban ƏLİYEVA**

***Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri***

**– Cənab Baş Direktor!**
**Hörmətli xanım Matsuura!**
**Əziz xoşməramlı səfirlər!**
**Xanımlar və cənablar!**

Bugünkü konfransın iştirakçılarının hamısını salamlayır, sizin hər birinizə «Xoş gəlmisiniz!» deyirəm. İnanıram ki, bugünkü konfransımız çox səmərəli keçəcək və Azərbaycan təhsilinin inkişafına öz müsbət təsirini göstərəcəkdir.

İlk növbədə icazə verin, ölkəmizdə rəsmi səfərdə olan YUNESKO-nun Baş Direktoru Koişiro Matsuuranı sizin hamınızın adından salamlayım. Cənab Baş Direktorla birlikdə Azərbaycana gəlmək üçün vaxt və imkan tapdığına görə xanım Takaka Matsuuraya öz minnətdarlığımı bildirirəm.

Nəzərinizə çatdırmaq istərdim ki, bu gün bizim qonaqlarımız arasında mənim həmkarlarım, YUNESKO-nun xoşməramlı səfirləri də iştirak edirlər. İcazə verin, onları sizə təqdim edim.

Məşhur fransız astronavtı Patrik Bodrini və onun ailə üzvlərini sizə təqdim edirəm. Xüsusi vurğulamaq istərdim ki, cənab Patrik Bodri gənclər üçün Avropa kosmik düşərgəsi layihəsinin müəllifidir. Onun təhsillə bağli çoxsayli layihələri böyük uğur qazanmışdır.

Bizim hörmətli qonaqlarımızın arasında xoşməramli səfir cənab Ömər Zülfi Livanelli də var. Onun zəngin yaradıcılığı xalqlar və mədəniyyətlər arasında dialoqun qurulmasına da xidmət edir.

Xoşməramli səfir cənab Kitin Minyoz məşhur səyyah və alimdir. O, sülh ideyalarının təbliği və ətraf mühitin qorunması

sahəsində çox mühüm işlər görmüşdür. Mən onu və onunla birlikdə ölkəmizə gələn xanımını salamlayır və sizə təqdim edirəm.

Mahir musiqiçi İvri Gitlıs artıq 20 ildir ki, xoşməramlı səfir kimi təhsilin və mədəniyyətin inkişafına xidmət edir. O, sülhə və birliyə çağıran mahnıları ilə bir çox ölkələrdə yaxşı tanınır.

Xoşməramlı səfir xanım Ki Fuk Fan Ti bütün həyatını sülh və barış ideyalarına həsr etmişdir. Onun yaratdığı Beynəlxalq Ki Fondu hərbi münaqişələr zamanı zərər çəkən uşaqlara yardım göstərir. Mən onu və həyat yoldaşını sizə təqdim edirəm.

Hörmətli cənab Baş Direktorla birlikdə Azərbaycana YUNESKO-nun məsul işçiləri və ekspertləri də gəliblər. Ekspertlərin bir çoxu ölkəmizdə olub, məcburi köçkün və qaçqın ailələrində yaşayan uşaqların təhsil problemləri ilə bağlı müxtəlif layihələri işləyib hazırlayıblar və bu gün də bizimlə əlaqələrini uğurla davam etdirirlər.

Bu gün bizim konfransda Azərbaycan təhsilinin çox nüfuzlu nümayəndələri iştirak edirlər. Mən inanıram ki, siz bugünkü konfransın ideyalarını öz konkret fəaliyyətinizdə həyata keçirməyə çalışacaqsınız. Sizə bu işdə uğurlar arzulayıram.

Bugünkü tədbirimizdə səfirlər və beynəlxalq qurumların nümayəndələri də iştirak edirlər. Ümidvaram ki, Azərbaycan təhsilinin dünya təhsil məkanına daxil olması prosesində onlar da öz köməyini göstərəcəklər.

Bizim konfransın çox simvolik və böyük mənaya malik adı var: Gələcəyə körpü. Mən inanıram ki, biz birlikdə bu körpünü yaratmağa nail olacağıq.

Əziz dostlar! YUNESKO-nun dəstəyi ilə 2000-ci ildə Dakarda keçirilən ümumdünya təhsil forumunun sənədləri sizə yaxşı məlumdur. Əslində bu, hamımız üçün təhsil sahəsində müəyyən edilmiş ümumi bir strategiyadır. Sözsüz ki, hər bir ölkə bu strategiyanı həyata keçirəndə öz milli xüsusiyyətlərini və təhsil sahəsində toplanmış təcrübəni nəzərə almalıdır.



Məlumdur ki, Azərbaycanın təhsil sistemində həyata keçirilən islahatlar xüsusi dövlət proqramı şəklində təsdiq olunmuşdur. Bu qlobal proqramla yanaşı, Təhsil Nazirliyi və təhsillə bağlı olan digər qurumlar da çox mühüm layihələr üzərində işləyirlər. Bu layihələrin bir qismində mötəbər beynəlxalq təşkilatlar da iştirak edir. Mən təhsillə bağlı bir layihəni xüsusi vurğulamaq, «Yeniləşən Azərbaycana yeni məktəb» barəsində ayrıca danışmaq istərdim. Bu layihədə dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin bir çox strukturları da iştirak edir.

Bildiyiniz kimi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən bu layihə çərçivəsində təkcə bu il ərzində ölkəmizin müxtəlif regionlarında 132 məktəbin inşası və lazımi avadanliqla təchiz olunması nəzərdə tutulmuşdur.

Bu gün mən böyük fərəh hissi ilə demək istəyirəm ki, bu il ərzində Azərbaycanda irimiqyasli bir layihə həyata keçirilmişdir. Ölkə Prezidentinin sərəncamına müvafiq olaraq klassik, müasir Azərbaycan və dünya ədəbiyyatının ən dəyərli əsərləri latın qrafikası ilə çap olunur. Bu layihə üzrə indiyədək hərəsi 25 min tirajla 250-dən çox kitab çap edilərək Azərbaycan oxucularına çatdırılmışdır. Azərbaycanın hər bir məktəbi, kitabxanası bu kitablarla təmin olunmuşdur. Həmin kitablar bu gün bu sarayda nümayiş etdirilir.

Bir sözlə, bütün bunlar deməyə imkan verir ki, bizim təhsilimizin inkişaf istiqaməti düzgündür və böyük uğurlarımız da vardır. Amma uğurlarla yanaşı, təhsil sistemində bu günə qədər həl-

lini tapmayan problemlər də var. Bu problemlərin bir çoxu keçmiş sovetlər məkanına xas olan problemlərdir. Mənə elə gəlir ki, bu problemlərin aradan qaldırılması üçün pilot layihələr həyata keçirsəydik pis olmazdı. Digər keçmiş sovet respublikalarında da bu təcrübədən istifadə oluna bilərdi.

Bizim ən ağır problemimiz Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycan 1 milyondan artıq qaçqın və məcburi köçkünü olan ölkədir. Ərazimizin 20 faizi işğal altındadır. Məcburi köçkünlərin təhsilinin təşkili ilə bağli ölkəmizdə nadir təcrübə qazanılmışdır. Biz işğala məruz qalan ərazilərdə əvvəllər mövcud olan təhsil infrastrukturunu qoruyub saxlaya bilmişik. Bu məktəblər qaçqın-köçkünlər yaşayan düşərgələrdə yerləşir. Biz həm də müəllim kollektivlərini saxlaya bilmişik və onlar düşərgələrdə uşaqların təlim-tərbiyəsi ilə məşğul olurlar. Bu, doğrudan da nadir bir təcrübədir. Mən inanıram ki, bu təcrübədən bütün münaqişə zonalarında istifadə oluna bilər. Hamımızın ən böyük arzusu odur ki, torpaqlarımız azad olunandan sonra bu məktəblər öz doğma yerlərinə qayıtsın və fəaliyyətini normal şəraitdə davam etdirə bilsin.

Ümidvaram ki, YUNESKO ilə birlikdə hazırlanan yeni proqramlar məcburi köçkün və qaçqın uşaqlarının təhsilinə öz müsbət təsirini göstərəcəkdir.

Hörmətli Baş Direktor! Çıxışımın sonunda Sizə bir kitab təqdim etmək istərdim. Sizin nitqlərinizdən ibarət olan bu kitab xüsusi nəşrdir. Bu kitab Azərbaycan oxucularına ünvanlanmış sözlərinizlə açılır. Kitaba Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan «Dədə Qorqud»un təntənəli yubileyində çıxışınız da daxildir. Bu kitabın nəşri ilə bağlı Sizi ürəkdən təbrik edirəm. İcazə verin, kitabı təqdim edim və Sizi çıxışa dəvət edim.



**Koişiro MATSUURA**

***YUNESKO-nun Baş Direktoru***

**Çox hörmətli xanım Əliyeva!**
**Hörmətli Baş nazirin müavini!**
**Hörmətli təhsil naziri!**
**BMT-nin nümayəndələri, xanımlar və cənablar!**

Bu konfransın açılışında iştirak etmək mənim üçün böyük şərəfdir. Konfrans təhsilə həsr olunmuşdur və bu, Azərbaycan üçün çox mühüm məsələlərdən biridir. Azərbaycanla YUNESKO-nun əməkdaşlığı çox böyük önəm daşıyır. Mən xanım Mehriban Əlıyevaya işgüzarlığına və canfəşanlığına görə minnətdarlığımı bildirmək istəyirəm. YUNESKO-da biz onun mədəniyyət sahəsindəki gözəl işlərindən xəbərdarıq. Eyni zamanda, təhsil sahəsində gördüyü işlər də nəzərəçarpan və təqdirəlayiqdir.

Təhsil naziri Misir Mərdanova da öz minnətdarlığımı bildirirəm ki, Parisdə müzakirələr zamanı bu təşəbbüsü irəli sürüb və çox yerində, vaxtında keçirilən bir tədbirin təşkilinə nail olubdur.

Bu, mənim Azərbaycana ikinci səfərimdir. Cənab İlham Əliyevin və Mehriban xanımın dəvəti ilə ölkənizə gəlmişəm. Birinci dəfə mən beş il öncə Prezident Heydər Əliyevin dəvəti ilə «Kitabi-Dədə Qorqud» eposunun 1300 illiyinə həsr edilmiş tədbirlərlə əlaqədar gəlmişdim. Heydər Əliyevlə çəkilmiş şəkillərimi bu gün fondda görəndə çox şad oldum. Bu şəkillər mənə çox dərin təəssürat bağışlamışdır.

Bizim ikitərəfli münasibətlərimizdə çox irəliləyiş olmuşdur. Bakının İçərişəhəri 2003-cü ildə YUNESKO-nun dünya mədəni irsi siyahısına daxil edilmişdir. Mən bu gün orada da olmuşam.

YUNESKO-nun mədəni irs siyahısına düşə biləcək yerlərə də baş çəkəcəyəm. Onlar Qobustan və Atəşgahdır. Bu səfər zamanı mən Heydər Əliyev Fondunda da olmuşam. Azərbaycanın birinci xanımı tərəfindən yaradılan daha bir fondda olmağı da qarşıma məqsəd qoymuşam. Bu, Azərbaycan Mədəniyyətinin Dostları Fondudur. Eyni zamanda, bu səfər zamanı Beynəlxalq Muğam Mərkəzinin binasının təməlinin qoyulmasında da iştirak edəcəyəm və bu, mənim üçün böyük şərəfdir.

Bildiyiniz kimi, 2003-cü ildə Azərbaycan muğamı YUNESKO-nun bəşəriyyətin mənəvi və şifahi mədəni irsinə daxil edilmişdir. Lakin indiki səfərimin əsas məqsədlərindən biri məhz təhsillə bağlıdır. Yəni biz Azərbaycanla bu sahədə əməkdaşlığımızı daha da genişləndirmək istəyirik. Artıq bizim Azərbaycanla texniki-peşə, informasiya və kommunikasiya texnologiyaları sahəsində geniş əməkdaşlığımız var və bu YUNESKO-nun iki qurumunun – texniki-peşə təhsili və təlimi üzrə mərkəzi (Bonnda yerləşir) və Moskvada yerləşən təhsildə informasiya texnologiyaları strukturu, xətti ilə həyata keçirilir.

Eyni zamanda, YUNESKO hamı üçün təhsil təşəbbüsünü həyata keçirir. 2005-ci ildə irəli sürülmüş bu təşəbbüsdə YUNESKO-nun davamlı inkişaf layihəsinə yönəldilmiş təhsil proqramının yerinə yetirilməsi çox önəmli yer tutur. Bu proqramda 2005-ci ildən 2014-cü ilə qədər təhsil onillıyinin keçirilməsi qərara alınmışdır və YUNESKO bu sahədə əsas rol oynayacaq təşkilatlardan biridir. Bu məqsədlə hazırda biz hərtərəfli plan üzərində işləyirik.

Bilirik ki, Azərbaycan bu təşəbbüsə qoşulan əsas tərəfdaşlardan biri olacaq və davamlı inkişafma yönəldilmiş proqramları dəstəkləyəcəkdir. Bu il Prezident İlham Əlıyev tərəfindən yüksək səlahiyyətlərə malık olan təhsil komissiyası yaradılmışdır. Komissiyanın əsas vəzifəsi təhsilin bütün aspektlərini yaxşılaşdırmaq və dünya standartlarına uyğun bir şəklə gətirməkdir. Bunun üçün Azərbaycanda mövcud olan təhsil sisteminin güclü və zəif tərəfləri dərindən öyrəniləcək və təhsilin yaxşılaşdırılmasına dair aparılacaq işlərin istiqamətləri müəyyənləşdiriləcəkdir.



Bu il iyulun 6-da YUNESKO Parisdə təhsil sisteminin davamli inkişafına yönəldilmiş islahatlara həsr olunmuş bir konfrans keçirmişdir. Konfrans Azərbaycanın təhsil naziri tərəfindən də dəstəklənmişdir. Azərbaycanda keçirilən indiki konfrans çox vaxtında görülən bir tədbirdir. Azərbaycanda təhsil sistemi sahəsində çox nəzərəçarpan, müsbət dəyişikliklər baş vermişdir. Bununla əlaqədar biz çox dərin müzakirələr aparmışdıq və bu müzakirələr zamanı Azərbaycanda təhsilin bütün aspektləri nəzərdən keçirilmişdir.

Biz bilirik ki, Azərbaycan çox böyük problemlərlə rastlaşmışdır. Bununla belə, çox yüksək nailiyyətləri qoruyub saxlaya bilmişdir. Yəni savadlılığın səviyyəsi, davamlılıq çox yüksək olaraq qalır.

Bununla belə, bəzi problemlər var və əgər indi onların üzərində işləməsək, uzunmüddətli perspektivdə bu problemlər ölkənin təhsil sisteminə və iqtisadi inkişafına çox mənfi təsir göstərə bilər. Artıq bizə verilən məlumata görə, xüsusən orta məktəblərdə davamlılığın azalması müşahidə olunur. Ümumiyyətlə, müəllimlik metodikalarma yenidən baxılmalıdır. Təhsil mühitinin pisləşməsi ilə müşahidə olunan bəzi aspektlər mövcuddur. İnformasiya texnologiyalarının olmaması böyük bir problemdir. Son bir neçə il ərzində Azərbaycanda çox ölçülüb-biçilmiş makroiqtisadi

siyasət aparıldığına görə və neft sektoruna qoyulan sərmayələr sayəsində üzümüzə gələn bir neçə il ərzində ölkədə ÜDM-in 3 dəfə artacağı gözlənilir. Ümidvarıq ki, neft sənayesindən əldə olunan gəlirlər çox düşünülmüş şəkildə istifadə olunacaq, ölkənin insan potensialının güclənməsinə yönəldiləcəkdir. Prezident İlham Əliyev tərəfindən bu sahədə aparılan siyasət bizdə nikbinlik doğurur.

Bu konfransda biz Azərbaycanda təhsil islahatına yönəldilmiş tədbirlər haqqında daha geniş məlumat almaq istərdik. Bütün bunlar Parisdə müzakirə olunan məsələlərin məntiqi davamı olacaq və davamlı inkişafa yönəldilmiş təhsil onilliyinin əsas məqsədlərini Azərbaycanda tətbiq etmək niyəti güdür. Öz tərəfimizdən sizə islahatlarınızda hərtərəfli yardım göstərəcəyik. Son müzakirələrimizin nəticəsi olaraq, Azərbaycan hökuməti ilə əməkdaşlığa dair memorandum imzalayacağıq. Bizim əsas prioritetlərimiz strateji planlaşdırma və təhsilin idarə edilməsi, təhsil əldə etmək imkanlarında bərabərlik, təhsilin keyfiyyəti, əsas texniki və peşə vərdişləri, yüksək informasiya və kommunikasiya texnologiyalarının təhsilə tətbiqi və təhsildə beynəlxalq əməkdaşlıqdır.

Azərbaycana bu səfərimin əsas məqsədləri Azərbaycanda keçirilən təhsil islahatlarının izlənməsi, təhlili və bunun əsasında Təhsil Nazirliyinin ümumi məruzəsini hazırlamaqdır.

Mən ümidvaram ki, sizin keçmişdə əldə etdiyiniz nailiyyətlər bu konfransda müzakirə olunacaqdır. Lakin bununla yanaşı, mövcud olan problemlər haqqında geniş fikir mübadiləsi ediləcək və bu da aparılan islahatları daha da istiqamətləndirəcəkdir. Konfransın nəticələrinə əsasən, YUNESKO-nun gələcəkdə Azərbaycana göstərəcəyi yardımının istiqamətlərini müəyyənləşdirəcəyik.

Diqqətinizə görə sağ olun.



## K.Matsuuranın «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

***Azərbaycan Respublikası Prezidentinin sərəncamı***

BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsindəki xidmətlərinə görə YUNESKO-nun Baş Direktoru Koişiro Matsuura «Şöhrət» ordeni ilə təltif edilsin.

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 23 avqust 2005-ci il

**Misir MƏRDANOV**

*Azərbaycan Respublikasının Təhsil Naziri*

## AZƏRBAYCAN TƏHSİLİ: PROBLEMLƏR, REALLIQLAR, PERSPEKTİVLƏR

**YUNESKO-nun Baş Direktoru cənab Matsuura!**
**Hörmətli xoşməramlı səfirlər!**
**Hörmətli Mehriban xanım!**
**Xanımlar və cənablar!**

Möhtəşəm «Gülüstan» sarayında keçirilən və Azərbaycan təhsilinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən bu mötəbər məclisdə Sizi salamlayır, dərin hörmət və ehtiramımı ifadə edirəm. Xüsusi fərəh hissi ilə bildirirəm ki, YUNESKO-nun Baş Direktoru cənab Matsuuranın konfransda iştirakı Azərbaycan təhsili üçün ən əhəmiyyətli və yaddaqalan hadisələrdən biridir.

Məlumat üçün nəzərinizə çatdırıram ki, bu, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanımın təşəbbüsü ilə Təhsil Nazirliyinin YUNESKO ilə birgə keçirdiyi ikinci konfransdır. İlk tədbir YUNESKO rəhbərliyinin təşkilatçılığı ilə 2005-ci il iyulun 6-da Parisdə keçirilmişdir. Qeyd etmək lazımdır ki, YUNESKO-nun tarixində ayrıca bir ölkəyə həsr olunmuş belə tədbirlər ilk dəfə məhz Azərbaycanla bağlı keçirilir.

**Hörmətli konfrans iştirakçıları!**

Son illərdə ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əlıyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə bərqərar olmuş siyasi stabillik və yüksək iqtisadi inkişaf tempi bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi irəliləyişlərə səbəb olmuş, xüsusilə Təhsil Nazirliyinin beynəlxalq əlaqələri xeyli genişlənmişdir. Hazırda Azərbaycanın ali məktəblərində 41 ölkədən 3500-dək əcnəbi tələbə təhsil alir. Bu, 2004-cü illə müqayisədə 1000 nəfər çoxdur. Xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin də sayı xeyli artmışdır. Dünyanın aparıcı universitetlərində Azərbaycanın orta məktəblərini bitirmiş 3000-dən artıq gənc yüksək göstəricilərlə ölkəmiz üçün zəruri ixtisaslara yiyələnir.



Bu gün Təhsil Nazirliyi dünyanın 30-dək dövlətilə təhsil əlaqələri yaratmış, 20-dən artıq beynəlxalq təşkilatla ümumilikdə 60-dan çox birgə layihə və proqramlar həyata keçirir.

Beynəlxalq əlaqələr sahəsində Təhsil Nazirliyinin **YUNESKO ilə əməkdaşlığı** xüsusilə fərqlənir. Bu əməkdaşlıq bir neçə istiqamətdə həyata keçirilir. Onları sizin diqqətinizə çatdırmaq istəyirəm:

1. «Təhsil hamı üçün» proqramı çərçivəsində səmərəli əməkdaşlıq nəticəsində 2000-ci ildə Azərbaycan üzrə Milli hesabat hazırlanmışdır. Azərbaycanın nümayəndə heyəti Dakar şəhərində dünya təhsil forumunda iştirak etmiş, forumda «Təhsil hamı üçün – 2015» Proqramı qəbul edilmişdir. Bu istiqamətdə işlər davam edir.

2. «Assosiativ məktəblər» layihəsinə Azərbaycan 2000-ci ildən fəal qoşulmuşdur. 18 təhsil müəssisəsi bu layihə çərçivəsində səmərəli əməkdaşlıq edir. Azərbaycanın bir sıra ümumtəhsil məktəbləri, o cümlədən Bakının 145, 181 və 220 nömrəli məktəbləri keçirilən müsabiqələrin qalibi olmuşdur. Layihənin əhəmiyyəti nəzərə alınaraq, əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulmuşdur.

1965
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN KİTABXANASI

3. Azərbaycanda texniki-peşə təhsilinin inkişafı sahəsində Təhsil Nazirliyinin YUNESKO ilə birgə əməkdaşlığı istiqamətində xeyli müsbət işlər görülmüşdür, lakin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi son dərəcə vacibdir.

4. YUNESKO ilə birgə həyata keçirilən inklüziv təhsil layihəsi 2005-ci ilin yanvarından başlanmışdır. Bu məqsədlə təşkilat tərəfindən ayrılmış qrant çərçivəsində Bakı və Sumqayıt şəhərlərində 2 məktəb və 2 uşaq bağçası müəyyənləşdirilmiş, 24 xüsusi qayğıya ehtiyacı olan uşaq layihəyə cəlb edilmişdir. Hazırda layihə üzrə işlər davam etdirilir.

5. Ali məktəblərdə YUNESKO kafedralarının yaradılması sahəsində əməkdaşlıq bilavasitə ali təhsilin keyfiyyətinin yüksəldilınəsinə, Azərbaycan ali təhsilinin beynəlxalq təhsil sisteminə inteqrasiyasına zəmin yaradır.

Beynəlxalq əlaqələr sahəsində ən əhəmiyyətli nailiyyətlərdən biri Azərbaycan ali təhsilinin beynəlxalq təhsil sisteminə inteqrasiyası istiqamətində atılan addımlardır. Cari ilin mayında Norveçdə Avropa təhsil nazirlərinin növbəti yığıncağında Azərbaycan **Boloniya prosesinə** qoşulmuşdur. Bununla əlaqədar Təhsil Nazirliyi, Avropanın norma və standartlarına müvafiq olaraq, ali təhsil sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, bu sektorda islahatların aparılması, vahid Avropa təhsil məkanına inteqrasiyanı sürətləndirmək məqsədilə informasiya və təcrübə mübadiləsi, ali təhsildə kredit sisteminin tətbiqi kimi öhdəliklər götürmüşdür. Ümumiyyətlə, 2010-cu ilədək Boloniya prosesinin qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur və Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə məqsədyönlü işlər görülür.



**Xanımlar və cənablar!**

Bu il iyulun 6-da YUNESKO-da keçirilən birinci konfrans zamanı ölkəmizdə təhsilin inkişafının bu nüfuzlu təşkilatın rəhbərliyi ilə razılaşdırılmış əsas prioritetlərini diqqətinizə yetirmək istəyirəm:

- ♦ Davamli insan inkişafında təhsilin rolunun artırılması;
- ♦ Təhsildə bərabər imkanların yaradılması;
- ♦ Təhsil qanunvericiliyinin təkmilləşdirilməsi;
- ♦ Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi;
- ♦ Təhsilin keyfiyyətinin təmin edilməsi;
- ♦ Təhsili idarəetmənin təkmilləşdirilməsi;
- ♦ Bütün təhsil pillələri üzrə yeni kurrikulum hazırlığı;
- ♦ Müəllim hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi;
- ♦ Təhsil müəssisələrinin akkreditasiyası;
- ♦ Boloniya prosesi çərçivəsində Avropa təhsil sisteminə inteqrasiya;
- ♦ Ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi;
- ♦ Təhsil sistemində yeni maliyyələşmə mexanizmlərinin tətbiqi;
- ♦ Təhsilin bir pilləsindən digərinə keçid mexanizminin təkmilləşdirilməsi;
- ♦ Məktəbəqədər təhsilin təkmilləşdirilməsi;
- ♦ Ümumi orta təhsilin strukturunun təkmilləşdirilməsi;
- ♦ Şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemin yaradılması;
- ♦ Təhsil müəssisələrinin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üzrə yeni mexanizmlərin tətbiqi.

**Hörmətli konfrans iştirakçıları!**

Bütün bunlarla yanaşı, Azərbaycan təhsilinin inkişafına təsir göstərən keçid dövrünün problemləri ilə sizi tanış etmək istəyirəm.

Uzun müddət totalitar bir rejimdə fəaliyyət göstərən təhsil sistemindən demokratik dəyərlərə, dünya təcrübəsinə əsaslanan milli təhsil sisteminə keçid, təbii ki, ciddi çətinliklərlə müşayiət olunmuşdur. Vahid tədris planları, proqramları və dərsliklərlə işləyən Sovet məktəbindən milli məktəbə keçid təhsil sistemi qarşısında duran mühüm bir vəzifə kimi qısa müddətdə həll edilməli idi.

Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası müstəvisində qarşıya çıxan problemlər milli təhsilin inkişafı kontekstində öz həllini tapmali idi. İlk növbədə təhsilin məzmununda dəyişikliklərin edilməsi, məzmunun məhz milli və ümumbəşəri dəyərlər əsasında hazırlanması xüsusi aktuallıq kəsb edirdi. Sovet dövründə əksər dərsliklərin kommunist ideologiyasını əks etdirməsi, yalnız bir neçə adda dərslikdən başqa, digər bütün dərsliklərin Moskvadan hazır gətirilməsi, onların təxirəsalinmadan yeniləşdirilməsinə ciddi ehtiyac yaratmışdı.

Müstəqilliyin ilk illərində inkişafı ləngidən amillərdən biri də kiril əlifbasından latın qrafikalı əlifbaya kütləvi keçid olmuşdur. Çox qısa zamanda bütün proqramların, dərsliklərin, dərs vəsaitlərinin, təlim və əlavə oxu materiallarının milli-mənəvi və ümumbəşəri dəyərlər əsasında yenidən hazırlanması və latın qrafikası ilə nəşri zərurəti yaranmışdı.

Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ və ona bitişik rayonları işğal etməsi nəticəsində 1 milyon insan öz doğma yurdundan didərgin düşmüşdür. Sağlam məntiqə sığmayan bir faktdır ki, Azərbaycan əhalisinin səkkizdə biri qaçqın və məcburi



köçkünə çevrilmişdir. Erməni təcavüzünün qurbanı olan, yurd-yuvalarından didərgin düşmüş minlərlə Azərbaycan vətəndaşı yaşayış üçün nəzərdə tutulmamış, insan sağlamlığı üçün son dərəcə yararsız yerlərdə məskunlaşmışdır. Yalnız təhsil müəssisələrinin binalarında və onların yataqxanalarında 8000-ə qədər məcburi köçkün ailəsi yerləşmişdir.

Təcavüz nəticəsində işğal edilmiş ərazilərdə, ümumilikdə 1000-ə yaxın təhsil müəssisəsi dağıdılmış, 115 min şagird, 16 minə yaxın müəllim məcburi köçkün düşmüşdür. Dünya praktikasında Azərbaycan yeganə ölkədir ki, böyük çətinliklərə baxmayaraq, işğal edilmiş ərazilərdə mövcud olmuş təhsil infrastrukturunu qoruyub saxlamış və ölkənin müxtəlif regionlarında, zəruri şərait yaratmaq mümkün olmasa belə, məcburi köçkün təhsil müəssisələrinin fəaliyyətini və köçkün uşaqların təhsilini təşkil etmişdir.

Heyrət ediləcək bir haldır ki, Ermənistanın Azərbaycana təcavüzü, milyonlarla insanı öz doğma yurdundan didərgin salması, minlərlə uşağı, gənci, qocanı, qadını məhv etməsi, azərbaycanlılara qarşı artıq neçənci dəfə soyqırımı həyata keçirməsi xalqımızın tolerantlıq, dözümlülük, humanistlik hisslərini azalda bilməmişdir. Bütün bunlardan sonra, hələ də, Azərbaycan xalqı münaqişənin sülh yolu ilə həllini istəyir və buna inanır. Budur Azərbaycan xalqının son dərəcə böyüklüyü və humanistliyi!

Məhz keçid dövrünün problemlərinin qısa müddətdə aradan qaldırılması, müstəqil Azərbaycanda milli təhsil sisteminin yaradılmasının vacibliyi təhsil islahatlarını zəruri etmişdir. Hələ 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiq edilmiş «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» Azərbaycan təhsilinin gələcək inkişaf konsepsiyası və

strategiyasını müəyyənləşdirmişdir. Proqrama əsasən üç mərhələdə aparılan islahatlar təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasının yaradılmasını, genişmiqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminat və yeni idarəetmə modelinin təşkili məsələlərini əhatə etmişdir. Hazırda proqramın III mərhələsində nəzərdə tutulan tədbirlər həyata keçirilir.

**Dünya Bankının krediti əsasında həyata keçirilən Təhsil İslahat Layihəsi (1999–2004-cü illər)** tədris planı və proqramları, tədris-metodik təminat, müəllimlərin ixtisasartırması, layihənin monitorinqi və qiymətləndirilməsi komponentlərini əhatə etmiş və 2004-cü ildə başa çatmışdır. Proqram çərçivəsində ilk dəfə olaraq pilot məktəbləri üçün yeni nəsil tədris proqramları, dərsliklər və metodik vəsaitlər, yeni kurrikulum nümunələri hazırlanmış, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni konsepsiya işlənmiş, milli qiymətləndirmə aparılmışdır.

Hazırda Təhsil Nazirliyi İkinci Kredit Sazişi əsasında **Təhsil Sektorunun İnkişafı Layihəsini (2003–2007-ci illər)** həyata keçirir. Təhsil Sektorunun İnkişafı Layihəsinin aşağıdakı əsas komponentlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

**Birinci komponent: Ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu.** Bu komponent daxilində kurrikulum islahatı, müəllim hazırlığı, dərsliklər və oxu materialları altkomponentləri üzrə islahatlar aparılır.

**İkinci komponent: Səmərəlilik və maliyyə islahatları.** Bu komponent çərçivəsində maliyyələşdirmə və büdcə islahatları, rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi altkomponentləri üzrə tədbirlər həyata keçirilir.



**Üçüncü komponent: Məktəb qrantı proqramı.** Bu komponent çərçivəsində ümumi təhsildə bərabər imkanların yaradılması və məktəblərdə innovasiyaların tətbiqi istiqamətində qrant layihələri həyata keçirilir.

**Dördüncü komponent: İdarəetmə, planlaşdırma və monitorinq.** Bu komponent daxilində şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsilin idarəolunması üzrə məlumat sistemi, idarəetmə və planlaşdırma imkanları altkomponentləri üzrə islahatlar aparılır.

**Beşinci komponent: Layihənin əlaqələndirilməsi və monitorinqi.** Bu komponent daxilində Layihənin monitorinqi, ictimaiyyətin məlumatlandırılması, bir sıra tədqiqatların aparılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2002-ci ildən başlayaraq Təhsil Nazirliyi öz fəaliyyətində ölkə təhsilinin ən ciddi problemləri ilə bağlı strateji təhlillərlə əsaslandırılmış inkişaf proqramlarının işlənib hazırlanması və həyata keçirilməsinə üstünlük verir. Hazırda təhsil sisteminin müxtəlif sahələri üzrə ümumilikdə 15 proqram mövcuddur. Onlardan:

**6 proqram həyata keçirilir:**

– yeni ümumtəhsil məktəblərinin tikintisi;
– məktəblərin avadanlıqla təmin olunması;
– dərsliklə təminat;
– ümumtəhsil məktəblərinin İKT ilə təminatı;
– ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı;
– xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilının təşkili.

**3 proqram təsdiq mərhələsindədir:**

– xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı;

– məktəbəqədər təhsilin təkmilləşdirilməsi;

– texniki-peşə təhsilinin təkmilləşdirilməsi.

**6 proqram hazırlanma mərhələsindədir:**

– təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsinin yeni modelinin yaradılması;

– Bakı şəhəri və Abşeron rayonunda yeni məktəblərin və mövcud məktəblərə əlavə sinif otaqlarının inşası;

– ümumtəhsil məktəblərinin istilik sistemi ilə təminatı;

– məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi;

– ali təhsilin təkmilləşdirilməsi;

– təhsil sektorunun inkişafı.

Həyata keçirilməyə başlanmış bir sıra proqramların artıq uğurlu nəticələri də olmuşdur. Məktəb tikintisi Proqramına əsasən 2003–2004-cü illərdə 6538 yerlik 19 yeni məktəb, 36 məktəblə 6380 yerlik 319 əlavə sinif otağı inşa olunmuş, 2004-cü ildə 7116 yerlik 21 yeni məktəbin tikintisinə başlanmışdır. Həm proqrama əsasən, həm də xarici ölkələrin qrantları, iş adamlarının, xeyriyyəçilərin vəsaitləri hesabına 1998–2005-ci illərdə 50219 yerlik 201 yeni məktəb binası inşa edilmişdir.

YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Bakı şəhərində yerləşən xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı 23 müəssisə əsaslı şəkildə bərpa edilmişdir, hazırda bu işlər respublikanın rayonlarında davam etdirilməkdədir. Kənd rayonlarında yerləşən və qəza vəziyyətində olan 132 məktəb üçün yeni binaların tikilməsi üzrə Heydər Əliyev Fondunda xüsusi proqram hazırlanmışdır və sentyabrın 15-dək onların inşasının başa çatdırılması üzrə intensiv iş aparılır.



Ən böyük nailiyyətlərimiz, şübhəsiz ki, dərslik siyasəti sahəsindədir. Son illərdə ümumtəhsil məktəbləri üçün 152 adda yeni dərslik və 50-dək adda dərs vəsaiti hazırlanmış, hazırda istifadə edilən 182 adda dərsliyin 83 faizi yeniləşdirilmişdir. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramına uyğun olaraq 2003-cü ildə I–V siniflərin, 2004-cü ildə isə VI–VII siniflərin şagirdləri dərsliklərlə pulsuz təmin olunmuşlar. Cari ildə bu iş davam etdirilmiş, 117 adda 7.906.000 nüsxə dərslik çap olunmuş və məktəblərə çatdırılmışdır, beləliklə, 2005-ci il avqustun 15-dək Azərbaycanın bütün ümumtəhsil məktəblərinin I–XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişlər. Bununla da, postsovet məkanında, Azərbaycan, şagirdlərin dərsliklərlə pulsuz təmin edilməsini reallaşdıran yeganə ölkə olmuşdur.

Son illərdə təhsil sektorunun maliyyələşməsi dinamik inkişaf etmişdir. Təhsil sektoruna ayrılan büdcə 2003-cü ildə 2002-ci ilə nisbətən 12,4 faiz, 2004-cü ildə 2003-cü ilə nisbətən 26,7 faiz, 2005-ci ildə 2004-cü ilə nisbətən 28,7 faiz çox olmuşdur. Dövlət büdcəsində təhsil xərcləri 2005-ci ildə 17,2 faiz təşkil etmişdir. Bilavasitə Təhsil Nazirliyi tərəfindən maliyyələşən müəssisələrin təhsil xərcləri ümumi xərclərin 14,5 faizini təşkil edir.

Ölkədə planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçilməsi, yeni iqtisadi münasibətlərin yaranması ilə əlaqədar təhsilin iqtisadiyyatının da bu prinsiplərə uyğun qurulması zəruri məsələ kimi qarşıda durmuşdu. Məhz bu səbəbdən Təhsil Nazirliyinin strategiyasında səmərəlilik və maliyyə islahatı vacib yer tutur. Müasir dövr onu tələb edir ki, hər bir sərmayə qoyuluşu müsbət keyfiyyət dəyişikliyi ilə nəticələnsin. Bu baxımdan təhsil müəssisələrinin mövcud maliyyələşmə mexanizmi kifayət qədər sə-

mərəli deyildir və onun təkmilləşdirilməsinə ciddi ehtiyac vardır. Təhsil müəssisələrinə maliyyə müstəqilliyinin verilməsi, adambaşma maliyyələşdirmə prinsipinin tətbiq olunması, vəsaitin səmərəli bölüşdürülməsi və xərclənməsi sahəsində təcrübə, demək olar ki, yoxdur. Bu səbəbdən, islahat çərçivəsində ümumtəhsil məktəblərinin maliyyələşdirilməsi sahəsində eksperimentlərə başlanmışdır. Belə ki, 59 pilot məktəbinə maliyyə müstəqilliyi verilmiş, adambaşına maliyyələşdirmə mexanizmi smaqdan keçirilməyə başlanmışdır. Eksperimentin nəticələrinə əsasən, maliyyə islahatlarmm təhsilin keyfiyyətinin yüksəldilməsinə real təsiri yoxlanılacaq, müsbət nəticələr əldə olunarsa, ikinci mərhələdə bu təcrübənin coğrafiyası genişlənəcək, üçüncü mərhələdə isə islahatlar bütün ölkəni əhatə edəcəkdir.

**Hörmətli konfrans iştirakçıları!**

İnanırıq ki, Təhsil Nazirliyi ilə BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında bu gün imzalanacaq Memorandum təhsil sahəsində, Azərbaycan – YUNESKO əməkdaşlığı sahəsində yeni mərhələnin başlanğıcı olacaqdır. İmzalanmış Memoranduma əsasən Təhsil Nazirliyi və YUNESKO-nun birgə komissiyası yaradılacaq. Komissiyanın fəaliyyəti Memoranduma daxil edilmiş prioritet istiqamətlərin – keyfiyyətli təhsil üçün bərabər imkanların yaradılması, təhsili idarəetmənin təkmilləşdirilməsi, təhsilin bütün pillələrində müəllimlərin ixtisasının artırılması və kurrikulumun təkmilləşdirilməsi vasitəsilə təhsilin keyfiyyətinin yüksəldilməsi, orta və texniki-peşə təhsili sahələrində vərdişlərin inkişafı, təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, beynəlxalq əməkdaşlıq şəbəkəsinin yaradılması üzrə səmərəli əməkdaşlığın həyata keçirilməsinə yönələcəkdir.



Son illərdə təhsilin inkişafı sahəsində aparılan məqsədyönlü islahatlar, YUNESKO və eləcə də digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq, ölkə rəhbərliyinin təhsilə diqqəti və qayğısı tam əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da sürətlə inkişaf edəcəkdir. Bu istiqamətdə hamınıza yeni-yeni nailiyyətlər arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Marko BORSOTTİ**
***BMT-nin Rezident əlaqələndiricisi***

## AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA İNSAN RESURSLARININ ROLU

**Təhsil nə üçün əhəmiyyətlidir:**

♦ Yoxsulluq ilə təhsil arasında birbaşa qarşılıqlı əlaqə mövcuddur.

♦ Təhsil əmək bazarını əmək qüvvəsi ilə təmin edir.

♦ Təhsil davamlı iqtisadi inkişaf üçün insan potensialını yaradır.

♦ Təhsil işsizlik probleminin həll edilməsində əhəmiyyətli rol oynayır.

**Nailiyyətlər:**

♦ Azərbaycanda savadlılığın göstəricisi çox yüksəkdir və bu ölkədə beynəlxalq səviyyədə tanınmış təhsil müəssisələri fəaliyyət göstərir (məs., Dövlət Neft Akademiyası, Bakı Dövlət Universiteti).

♦ Burada təhsilə cəmiyyət tərəfindən hörmət yüksəkdir.

♦ Azərbaycanın təhsil sahəsində üstünlüyü: qərb yönümlü çoxdilli cəmiyyət.

♦ İslam dünyasında qızlar üçün birinci müasir məktəblər Bakıda açılmışdır və bu fakt Azərbaycanda qadınların təhsil alması üçün bərabər hüquqların mövcudluğunu göstərir.



♦ Azərbaycanın neft sənayesinin tarixi elm və texnologiyalarının inkişafına təkan vermişdir.

♦ Dənizin dibindən neftin çıxarılması sahəsində Azərbaycan mütəxəssisləri dünyada birinci olmuşlar (Neft Daşları).

♦ Petrokimya elmi Azərbaycanda uğurla inkişaf edir (məşhur alım Yusif Məmmədəlıyev).

♦ Azərbaycanda qabaqcıl və tanınmış riyaziyyat məktəbi mövcuddur.

♦ Astronomiya sahəsində nailiyyətlər: Qafqazda ən böyük olan Nəsirəddin Tusi adına Şamaxıdakı Astrofizika rəsədxanası.

♦ Bakı Konservatoriyasında dünyada tanınmış musiqiçilər çalışır.

♦ Azərbaycanda dünyada ən yüksək sürətlə inkişaf edən iqtisadiyyat və MDB ölkələrində ən yüksək sürətlə inkişaf edən sənaye mövcuddur.

♦ BTC və Cənubi Qafqaz neft kəmərlərinin açılması ilə bağlı olaraq neft və qaz ehtiyatlarının artması.

♦ Hökumətin neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi niyyəti.

♦ Hökumətin «qara qızıl»ı «insan qızılı»na çevirmək niyyəti.

♦ Neft layihələrinin həyata keçirilməsi insan inkişafına müsbət təsir göstərir. Bu təsir yuxarıda göstərilən sahədə çalışan insanların bilik və bacarıqlarının artırılması vasitəsilə özünü büruzə verir.

♦ Tələbələrin qəbulu sistemində şəffaflığın təmin edilməsi məqsədi ilə İKT-nin tətbiq edilməsi.

♦ 2006–2015 illər üçün Yoxsulluğun Azaldılması üzrə Dövlət Proqramının qəbul edilməsi.

♦ Müxtəlif təhsil pillələrində təhsilin keyfiyyətini müasir standartlara uyğunlaşdırmaq və təhsilin keyfiyyət monitorinqinin keçirilməsi üçün Təhsil üzrə Dövlət Komissiyasının yaradılması.

**Problemlər:**

♦ Sovet İttifaqınm dağılmasından sonra təhsilin keyfiyyətinin aşağı düşməsi prosesini dayandırmaq.

♦ Təhsilin keyfiyyətinin artırılması (iqtisadiyyatın ehtiyaclarını nəzərə almaqla kurrikulumun hazırlanması sahəsində islahatlar).

♦ Təhsilin idarə olunması (təhsilin idarəolunması sahəsində islahatlar, korrupsiyaya qarşı mübarizə, təhsil siyasəti).

♦ Təhsil sisteminin zəifləməsini aradan qaldırmaq məqsədi ilə büdcə vəsaitlərinin səmərəli istifadəsi (məktəb binaları, müəllimlərin məvacibləri, avadanlıq, dərsliklər).

**Texniki-peşə təhsili:**

♦ Texniki-peşə təhsilində struktur islahatların həyata keçirilməsi ehtiyacı (sistemin idarəolunması, maliyyələşmə, yüksək ixtisaslı kadrların hazırlanması, işsizlər üçün təkmilləşmə və yenidənhazırlanma kursları, yeni kurrikulumlarm hazırlanması və tətbiqi).

♦ Ölkənin iqtisadi ehtiyatlarını nəzərə almaqla yüksək ixtisaslı kadrların hazırlanması məqsədi ilə texniki-peşə məktəblərinin imkanlarını genişləndirmək (xüsusilə, kommersiya, biznes, xidmət, kənd təsərrüfatı, informatika, kiçik və orta müəssisələrin inkişafı sahəsində).

♦ Təhsil sisteminin Sovet erasından müasir dünyaya keçməsi prosesi natamam xarakter daşıyır.



♦ Təhsil sisteminin inkişafı Azərbaycanın iqtisadi inkişafından geri qalmışdır və bu əmək bazarında problemlər yaradır.

**Ehtiyaclar:**

♦ 2015-ci ilə qədər dünya standartlarına cavab verən təhsil sistemi qurmaq məqsədilə MDG (Millenium İnkişaf Prioritetləri) Proqramında əks olunan təhsil komponentlərini 10 illik Davamlı İnkişaf Strategiyasma daxil etmək.

♦ İbtidai təhsildə yüksək davamiyyət göstəricisini qoruyub saxlamaqla bu göstəricini orta təhsildə də maksimum dərəcəyə çatdırmaq.

♦ Təhsilin keyfiyyətinin artırılması.

♦ Ali təhsilin keyfiyyətinin artırılması.

♦ Əmək bazarının tələblərinə cavab verən kurrikulumların hazırlanması.

♦ İnkişaf edən özəl sektorunun insan resursları ilə bağlı ehtiyacını ödəmək məqsədilə yeni kurrikulumları hazırlamaq.

♦ Universitetlər, tədqiqat mərkəzləri və kiçik/orta müəssisələri arasında əməkdaşlığın stimullaşdırılması.

♦ Əmək qüvvəsinin rəqabət imkanlarını artırmaq.

♦ Müəllimlərin hazırlanması müasir standartlara uyğun həyata keçirilməlidir, onlar yüksək məvacib almalıdırlar və müəllim peşəsinin cəmiyyətdə böyük hörməti olmalıdır.

♦ Təhsil prosesinə digər maraqlı tərəflər də cəlb olunmalıdır (valideynlər, işverənlər).

**Mühüm addımlar:**

♦ Qeyri-neft sektorunda insan resursları sahəsində ehtiyacların qiymətləndirilməsi və müvafiq proqramlarm hazırlanması.

♦ Dövlət Neft Fondunun imkanlarından istifadə edərək insan resurslarının inkişafına əlavə sərmayələr qoymaq.

♦ Təhsilin kompyuterləşmə prosesini davam etdirmək.

♦ Təhsil Nazirliyinin idarəetmə və monitorinq sahəsində fəaliyyətini təkmilləşdirmək.

♦ Həyat boyu təhsil. Yaşlıların təhsili ilə bağlı siyasəti inkişaf etdirmək.

♦ Texniki-peşə sahəsində təhsil müəssisələrinin qiymətləndirilməsi və sertifikasiyası sahəsində yeni mexanizmlərin yaradılması.

♦ Müasir texnologiyaların tətbiqi.

*Qeyd:*

Azərbaycan azsaylı ölkələrdən biridir ki, onun iki YUNESKO-nun xoşməramli səfiri var:

Xanım Mehriban Əliyeva, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, cənab Mstislav Rostropoviç, dünyada tanınmış violonçelçi və dirijor.



**Əli HƏSƏNOV**

***Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri***

## QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN UŞAQLARIN TƏHSİLİNİN TƏŞKİLİ

**Hörmətli xanım Mehriban Əliyeva!**
**Hörmətli cənab Koişiro Matsuura!**
**Hörmətli qonaqlar!**
**Hörmətli xanımlar və cənablar!**

İlk növbədə hazırkı dövrdə Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən belə bir tədbirin keçirilməsinə görə **YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya və YUNESKO-nun Baş Direktoru cənab Koişiro Matsuuraya** Azərbaycandakı bir milyon qaçqın və məcburi köçkünlər adından dərin minnətdarlığımızı bildirir, dəyirmi masanın işinə uğurlar diləyirəm.

YUNESKO-nun Baş Direktorunun bir sıra xoşməramlı səfirlərlə birlikdə Azərbaycana səfərindən böyük məmnunluq duyur və bunu YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya və Azərbaycan xalqına səmimi münasibət kimi qiymətləndiririk.

Ölkəmizdəki qaçqın və məcburi köçkün uşaqların təhsil problemləri məsələsinə toxunmazdan əvvəl Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsi olaraq ya-

ranmış 1 milyonadək qaçqın və məcburi köçkünlər barədə tədbir iştirakçılarına çox qısa məlumat vermək istərdim.

Ermənistanın 1988–1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən onun ərazisində yaşamış 250 min nəfər azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovulmuş, Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi–Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, 700 min nəfərədək soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda müvəqqəti məskunlaşmışdır. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Ahıska türkü də Azərbaycanda sığınacaq tapmışdır.

Azərbaycanda həmçinin 11 min nəfərdən çox üçüncü ölkədən «qaçqın» statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxs mövcuddur. Onların böyük əksəriyyətini çeçen mənşəli Rusiya vətəndaşları, Əfqanıstan, İran, İraq, Fələstindən olan şəxslər təşkil edir.

Beləliklə, hazırda Azərbaycanda bir milyona yaxın qaçqın, məcburi köçkün və «qaçqın» statusu almaq niyyətində olan (sığınacaq axtaran) şəxs vardır.

Hazırda dünyada 19 mln. nəfərdən çox qaçqın, məcburi köçkün vardır. Onun 5 faizi Azərbaycanın payına düşür. Dünyanın kiçik bir parçası olan 8 milyonluq Azərbaycan əhalisinin hər 8 nəfərindən biri qaçqın və ya məcburi köçkündür. Bu da dünyada analoqu olmayan bir hadisədir.

Artıq 12 ildən çoxdur ki, məcburi köçkünlərin əksəriyyəti hələ də çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında, yataqxanalarda, tikintisi yarımçıq qalmış binalarda olduqca dözülməz şəraitdə yaşayırlar.



Xalqımızın ümummilli lideri Heydər Əliyevin beynəlxalq aləmdə apardığı işlərin nəticəsi olaraq Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti dünya ictimaiyyətinə çatdırıldı, münaqişənin siyasi həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı beynəlxalq hüquq normalarına uyğun qərarlar qəbul edildi. Belə ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 4 qətnaməsi qəbul edildi. Həmin qərarlara görə, işğalçı Ermənistan Azərbaycan torpaqlarını azad etməli, məcburi köçkünlər öz yurdlarına qaytarılmalı və Dağlıq Qarabağın statusu məsələsi müəyyən edilməli idi;

ATƏT-in 1996-cı il Lissabon Sammitində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində müzakirələr aparıldı və müvafiq qərar qəbul edildi;

ABŞ Dövlət Departamentinin son 3 ildə illik hesabatlarında Ermənistanın Azərbaycana təcavüz etməsi faktları qeyd edilmişdir.

AŞ PA-nın 2005-ci il 25 yanvar tarixli 1416 saylı qətnaməsində Ermənistanın işğalçı dövlət olduğu, bununla da Avropa Şurası qarşısında öhdəliyə əməl edilmədiyi qeyd edildi, məcburi köçkünlərin təhlükəsizlik şəraitində və ləyaqətlə öz evlərinə qayıtmaq hüquqlarının mövcudluğu bir daha təsdiqləndi.

Dünyada belə problemlərlə məşğul olan təşkilatlar bu məsələyə öz münasibətlərini bildiriblər, yəni təcavüz faktını təsdiqləyiblər və həlli yollarını göstəriblər. Lakin insanların «onda bu problem nə üçün həll olunmur?» suallarına biz cavab verə bilmirik.

Təəssüflər olsun ki, Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe, ATƏT-in, Minsk qrupunun və digər beynəlxalq təşkilatların fəaliyyətsizliyi, bəzi dövlətlərin və beynəlxalq təşkilatların münaqişəyə ikili standartla yanaşması nəticəsində məsələnin sülh yolu ilə həlli hələ də uzanır.

Azərbaycan dövləti tərəfindən, digər sahələrlə yanaşı, qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinə də daim diqqətlə yanaşılır və bununla bağlı geniş tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi, ölkə Prezidentinin 2001–2002-ci illərdəki 3 Fərmanı ilə Dövlət Neft Fondundan ilk ayrılmış 359 mlrd. manat (74 mln. ABŞ dolları) vəsait məhz indiyədək daimi məskunlaşmamış qaçqın, həmçinin çadır düşərgələrində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin mənzil-məişət vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Qısa bir müddətdə ümumilikdə 6411 evdən ibarət və həyat üçün vacib olan bütün infrastruktura malik 30 yeni qəsəbə inşa edilərək istifadəyə verilmiş, 6 mindən çox qaçqın və məcburi köçkün ailəsi yeni evlərə köçürülmüş, Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi ləğv edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2004-cü ilin fevralında imzalanmış Sərəncama əsasən, Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş 3860 məcburi köçkün ailəsi üçün 13 yeni müasir qəsəbənin tikintisi bu ilin sonuna kimi əsasən başa çatacaq və 4 çadır düşərgəsi də ləğv ediləcəkdir.

Ölkə Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş yeni Dövlət Proqramı bilavasitə qaçqınların və məcburi köçkünlərin bütün sosial problemlərinin tənzimlənməsinə yönəldilmişdir.



Təəssüflə qeyd etməliyəm ki, beynəlxalq təşkilatların humanitar məqsədlə qaçqın və məcburi köçkünlər üçün ayırdığı vəsaitlər ilbəil azalır. Baxmayaraq ki, problem öz həllini tapmayıb, hökumət isə bu yükü tədricən öz üzərinə götürür.

Müqayisə üçün bildirmək istərdim ki, beynəlxalq təşkilatlar tərəfindən qaçqın və məcburi köçkünlərlə bağlı layihələrə təkcə 2004-cü ildə təxminən 34 mln. ABŞ dolları həcmində vəsait sərf olunmuşdursa, Neft Fondundan ayrılmış vəsaitlər də nəzərə alınmaqla, hökumətin bu sahə üzrə xərcləri 2004-cü ildə 120 mln. ABŞ dolları olmuşdur. Lakin qeyd etməliyəm ki, hökumət bu yükü tam öz üzərinə götürmək iqtidarında deyil və bizim beynəlxalq təşkilatların köməyinə ehtiyacımız qalmaqdadır.

**Hörmətli tədbir iştirakçıları!**

Ermənistanın işğal olunmuş ərazilərə vurduğu ziyan təxminən 60 mlrd. ABŞ dolları həcmində hesablanır. Yəni işğal olunmuş ərazilər tamamilə sökülüb-dağıdılmış və talan edilmişdir. O cümlədən, 736 yaşayış məntəqəsi, 131 min yaşayış evi, 1510 tarix, mədəniyyət müəssisələri və abidələr, 798 səhiyyə obyektləri və texniki infrastrukturlar.

Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində həm də təhsil sahəsinə çox ciddi zərbələr vurulmuşdur. 633 ümumtəhsil məktəbi, 298 məktəbəqədər tərbiyə müəssisəsi, 18 texniki-peşə məktəbi, 47 məktəbdənkənar tərbiyə müəssisəsi, 4 orta ixtisas məktəbi, 3 ali məktəb işğal zonasında qalmış və dağıdılmışdır. 130 min nəfərə yaxın Azərbaycan məktəblisi və tələbəsi, eləcə də 20 minə yaxın təhsil işçisi məcburi köçkün düşmüşdür.

Onların xeyli hissəsinin təhsil müəssisələrində, uşaq bağçalarında və məktəbdənkənar tərbiyə müəssisələrində müvəqqəti

məskunlaşması təhsil sisteminin iş ahəngini də ciddi şəkildə pozmuşdur. Bu gün şəhər və rayonlardakı 9 ali məktəbin, 17 texnikumun, 48 texniki-peşə və 850-yə qədər ümumtəhsil məktəbinin tədris və yataqxana korpuslarında, 100-dən çox uşaq bağçasında 7500-dən çox məcburi köçkün ailəsi məskunlaşmışdır.

Bu gün əraziləri işğal olunmuş rayonlar üzrə 687 məktəb, 61 məktəbəqədər və 31 məktəbdənkənar tərbiyə müəssisəsi yaradılmış, 6 texniki-peşə məktəbi təşkil olunmuşdur. Həmin tədris ocaqlarında 93 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 17 min müəllim məşğul olur.

Dövlət başçısının 2003-cü il 4 avqust tarixli Sərəncamı ilə dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azad edilmişlər. Büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin olunmamış 6 min nəfərdən çox məcburi köçkün təhsil işçisinə orta aylıq əmək haqqı ödənilməsi davam etdirilir.

1993/1994-cü tədris ilindən ibtidai siniflərdə təhsil alan məcburi köçkün şagirdlərə dərsliklərin pulsuz paylanmasına başlanılmışdı. Hazırda məcburi köçkün məktəblərində təhsil alan şagirdlərin hamısı pulsuz dərsliklərlə təmin olunur.

Bu təşəbbüsə qoşulan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən 20 min ədəd «Əlifba» dərsliyi və xeyli dərs ləvazimatları məcburi köçkünlərə paylanılmış, UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin köməkliyi ilə ibtidai sinif şagirdlərinə 1350 ədəd məktəbli çantası və dərs ləvazimatı hədiyyə edilmişdir.



Məcburi köçkün məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılması da dövlətimizin prioritet sahələrindən biridir. Məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə digər sosial infrastrukturla yanaşı, həmçinin 3200 şagird üçün 18 orta məktəb, 600 yerlik 18 uşaq bağçası tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamma əsasən məcburi köçkün ailələri üçün hazırda yeni salman 13 qəsəbədə həmçinin 2 min şagird üçün 15 məktəb, 175 yerlik 5 uşaq bağçası da inşa edilir.

Təqdirəlayiq haldır ki, məcburi köçkün məktəblərinin maddi-texniki bazasının yaxşılaşdırılmasında ABŞ-ın, Yaponiyanın Azərbaycandakı səfirlikləri, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, UNİCEF-in və ABŞ-ın «Beynəlxalq İnkişaf Agentliyi», «Dünya Ümidi Beynəlxalq Azərbaycan» və «Rilif İnternəşnl» beynəlxalq humanitar təşkilatlarının Azərbaycandakı nümayəndəlikləri də yaxından iştirak edirlər. Fürsətdən istifadə edərək, bu xeyirxah missiyaya görə həmin təşkilatlara bir daha minnətdarlığımı çatdırmaq istərdim.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, əraziləri işğal olunmuş rayonlarm ümumtəhsil məktəblərində çox ciddi problemlər mövcuddur. Belə ki, məktəblərin böyük əksəriyyəti yerli məktəblərin nəzdində, eləcə də tədris üçün yararlı olmayan obyektlərdə dözülməz şəraitdə fəaliyyət göstərir. Onların maddi-texniki bazası isə xeyli aşağı səviyyədədir, məktəb avadanlığı, sinif otaqları çatışmır.

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qaçqın və məcburi köçkün uşaqların təhsil problemləri ilə əlaqədar

məruzə hazırlamaq məqsədilə 2005-ci ilin may ayında ölkəmizdə səfərdə olan YUNESKO-nun nümayəndələri də Sabirabad, Saatlı və İmişli rayonlarında məcburi köçkün məktəblərinin fəaliyyəti ilə tanış olarkən, bütün bu problemlərin canlı şahidi oldular. Onlar, eyni zamanda, Biləsuvar rayonunda məcburi köçkünlər üçün yeni salınmış qəsəbələrdə inşa edilmiş müasir məktəblərlə də tanış oldular və may ayının 13-də səfərlə bağli təəssüratlarını Mehriban xanım Əliyeva ilə ətraflı müzakirə etdilər.

Lakin şəraitin dözülməzliyinə baxmayaraq, məcburi köçkün şagirdlər dərslərə davamiyyətə son dərəcə ciddi yanaşırlar və onların təhsilə həvəsi bu gün də yüksək olaraq qahr. Məhz bunun nəticəsidir ki, məcburi köçkün məzunlar arasında hər il ali və orta ixtisas təhsili ocaqlarına qəbul olunanların sayı yerli məktəblərlə müqayisədə heç də aşağı səviyyədə olmur. Belə ki, təkcə keçən ildə 4 min nəfərdən çox qaçqın və məcburi köçkün məzun ali məktəb tələbəsi adını qazanmışdı və ölkə üzrə Prezident təqaüdünə layiq görülənlərin də 6 nəfəri məcburi köçkün idi.

Cari ildə də, ilkin hesablamalara görə, 5 min nəfərdən çox qaçqın və məcburi köçkün müxtəlif ali məktəblərə qəbul olunmuşdur.

Bizim düçar olduğumuz problemin dünyada analoqu olmadığı kimi, dözülməz şəraitdə yaşayan, heç bir texniki tələbə cavab verməyən məktəblərdə təhsil alan qaçqın və məcburi köçkün uşaqların təhsildə yüksək göstəricilər əldə etməsinin də, yəqin ki, dünyada analoqu yoxdur. Bunun özü Azərbaycan gənclərinin, o cümlədən qaçqın və məcburi köçkün uşaqların təhsilə olan marağına əyani sübutdur.

Qeyd etmək lazımdır ki, fəaliyyətə başladığı ilk gündən etibarən Heydər Əliyev Fondu qaçqın və məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına və onların həllinə daim diqqətlə yanaşır. Heydər Əliyev Fondunun yeni layihəsi olan «Azərbaycan» internet portalına Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Xocalı soyqırımına, erməni vəhşiliklərinə həsr olunmuş 17 saytın daxil edilməsi, 2004-cü ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən ilk dəfə məktəbə gedən məcburi köçkün uşaqlara məktəbli ləvazimatından ibarət hədiyyələrin təqdim olunması və bu gün keçirilən tədbir də bunun konkret ifadəsidir.



Ümumiyyətlə, Heydər Əliyev Fondu müvəqqəti məskunlaşma obyektlərində mütəmadi olaraq məcburi köçkünlərlə görüşlər keçirir və onlara müvafiq yardımlar göstərir.

Bu diqqət və qayğıya görə ölkəmizdəki bir milyon qaçqın və məcburi köçkünlər adından YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildirir, ona gələcək fəaliyyətində yeni-yeni uğurlar diləyirik.

Fürsətdən istifadə edərək, **YUNESKO-nun Baş Direktoru cənab Koişiro Matsuuraya** bugünkü tədbirdə çoxsaylı xoşməramlı səfirlərlə birlikdə iştirak etdiyinə, Azərbaycanın təhsil problemləri, o cümlədən qaçqın və məcburi köçkünlərin təhsil problemləri ilə yaxından tanış olduğuna görə bir daha təşəkkür edir və ümidvar olduğumu bildirirəm ki, ölkəmizdəki qaçqın və məcburi köçkün uşaqlarm təhsil problemlərinin həllində bugünkü tədbir əhəmiyyətli rol oynayacaq və dünyanın ən iri beynəlxalq mədəni-humanitar təşkilatı kimi YUNESKO da bu mühüm işdə bizə daim yardımçı olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm!

**Mir Əsgər HÜSEYN**

***YUNESKO-nun Təhsil Siyasəti və Strategiyası Departamentinin direktoru***

## TƏHSİLİN İNKİŞAFINA DƏSTƏK SAHƏSİNDƏ YUNESKO-nun TƏCRÜBƏSİ

– YUNESKO təhsil sahəsində Milli siyasətin və strategiyanın hazırlanması və həyata keçirilməsi üzrə tövsiyələr təqdim edir, həmçinin texniki və insan resurslarının inkişafı sahəsində yardım göstərir.

– YUNESKO yanaşmasının xüsusiyyəti ondan ibarətdir ki, o öz fəaliyyətini konkret ölkə ilə sıx əməkdaşlıq əsasında qurur. Ölkənin rəhbərliyi bu əməkdaşlıqda həlledici rol oynayır.

– Prioritet inkişaf edən ölkələrdə Təhsil Hamı üçün Proqramı çərçivəsində qoyulan məsələlərin həyata keçirilməsinə verilir. Afrika və Asiyanın ən zəif inkişaf edən, həmçinin keçid dövrünü yaşayan ölkələrə xüsusi diqqət yönəldilir.

– Milli təhsil sistemlərinə yardım aşağıdakı istiqamətlər üzrə göstərilir.

a) Davamli milli islahatların və inkişaf siyasətinin hazırlanması, tövsiyələr, strategiya və proqramlar ciddi texniki təhlilin əsasında qurulur;

b) Siyasətin təhlili, inkişafın planlaşdırılması və qəbul olunmuş strategiyanın həyata keçirilməsi, sahələrdə ixtisaslı milli kadrlarm hazırlanması;

c) Milli rəhbərliyin inkişafmın planlaşdırılması və yardımın koordinasiyası sahəsində ekspert yardımının göstərilməsi;



d) Ölkələr arasında informasiya və təcrübə mübadiləsinə yardım.

– Bu məqsədlərə nail olmaq üçün YUNESKO ancaq mənzil-qərargah və regional nümayəndəliklərdə çalışan ekspertlərin deyil, YUNESKO-nun xüsusiləşdirilmiş institutlarının (İBE, İİEP, VİE, VİS, CEPES, UNEVOC) mütəxəssislərini də cəlb edir. YUNESKO keçid dövrünü yaşayan Şərqi Avropa və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq edir. Bu yardım yuxarıda göstərilən ölkələrdə təhsil sahəsində islahatların həyata keçirilməsinə yönəldilir. Xüsusi diqqət ölkənin xüsusiyyətlərinə və bu ölkədə təhsilin inkişafının səviyyəsinə verilir.

Bu ölkələrdə son üç il ərzində həyata keçirilmiş əməkdaşlıq proqramlarının bir neçəsi haqqında məlumat:

♦ Təhsil Hamı üçün Proqramının məqsədlərinin həyata keçirilməsi üçün Milli Planın hazırlanması üzrə Balkan Seminarı. Seminarda iştirak edən ölkələrin xüsusiyyətlərini nəzərə alaraq yerli mütəxəssislərə YUNESKO-da toplanmış məlumat və təcrübə təqdim olunmuşdur.

♦ Milli azlıqların çoxmillətli ölkələrdə etnik azlıqların keyfiyyətli təhsillə təmin edilməsi, təhsilin idarəolunması və digər məsələlər regional seminarda müzakirə olunmuşdur.

♦ Keçid dövründə olan bir neçə ölkələrdə təhsilin planlaşdırılması və insan resurslarının inkişafı üzrə texniki seminarlar keçirilmişdir.

♦ Təhsil Hamı üçün Proqramı çərçivəsində bir neçə ölkəyə inkişafın planlaşdırılması (qiymətləndirmə, siyasətin təhlili, siyasi dialoq, konkret tədbirlər) üzrə texniki yardım göstərilmişdir.

♦ Keçid dövrünü yaşayan ölkələrə xas olan problemlər (islahatlarm planlaşdırılması, resursların idarəolunması, özəl təhsil,

məktəbəqədər təhsil, texniki-peşə təhsili, Avropa inteqrasiyası) üzrə seminarlar keçirilmişdir. Seminarlar zamanı geniş təcrübə mübadiləsi aparılmışdır.

Moldovada Təhsil Hamı üçün Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin planlaşdırılması üzrə yardım.

♦ Sovet İttifaqının dağılmasından və 1991-ci ildə Moldova öz dövlət müstəqilliyini əldə etdikdən sonra siyasi, iqtisadi və sosial problemlər ilə üzləşdi. İqtisadi və sosial sektorda mövcud olan çoxsaylı problemlərini həll etmək məqsədilə, bu ölkə bir neçə islahat proqramı, o cümlədən İqtisadi İnkişaf və Yoxsulluğun Azaldılması Proqramını qəbul etmişdir *(dekabr 2004-cü il)*. Bu proqramın təhsil komponenti Təhsil Hamı üçün Proqramı üzrə Milli Strategiya ilə üst-üstə düşür.

♦ Xüsusilə, Dakar Forumunun məqsədlərinə uyğun olaraq, Moldova Təhsil Hamı üçün Proqramı üzrə Milli Strategiyanı hazırlamışdır və bu strategiya Milli rəhbərlik tərəfindən 2002-ci ildə qəbul olunmuşdur. Eyni zamanda, BMT-nin yardımı ilə həmin proqram çərçivəsində qısa müddətli Tədbirlər Planı hazırlanmışdır *(2004–2008-ci illər)*.

♦ YUNESKO bu çərçivə Strategiyasının və Tədbirlər Planının hazırlanmasmda yardım göstərmişdir.

♦ YUNESKO-nun yardımı əsasən təhsilin planlaşdırılması sahəsində insan resurslarının hazırlanmasından ibarət idi. Bu proqramın əsas məqsədi milli ekspertlərə tədbirlər planının hazırlanması üçün geniş imkanlar yaradılması idi.

♦ Təhsil Hamı üçün Proqramı çərçivəsində Milli Strategiyanın və Tədbirlər Planının hazırlanmasında YUNESKO-nun rolunu yüksək qiymətləndirərək Moldovanm Baş naziri və BMT-nin ölkədəki nümayəndəsi 2004-cü ilin may ayında YUNESKO-nun Baş Direktorunun adma təşəkkür məktubu ünvanlamışlar. Bu məktubda onlar yüksək səviyyəli ekspert və texniki yardımın təmin edilməsinə görə YUNESKO-ya öz minnətdarlıqlarını bildiriblər.



**Keçid dövrünü yaşayan ölkələrdə ümumi problemlər.**

YUNESKO-nun təcrübəsini nəzərə alaraq, qeyd etmək lazımdır ki, keçmiş sosialist ölkələri bir sıra ümumi problemlər ilə üzləşmişlər.

♦ Mərkəzləşmiş planlaşdırılmadan strateji və çevik planlaşdırmaya keçid;

♦ Təhsil siyasətinin müəyyənləşdirilməsində və təhsilə maliyyə və digər resursların ayrılmasında Təhsil Nazirliklərinin rolunun və səlahiyyətinin yüksəldilməsi;

♦ Donor təşkilatları ilə işin qurulması;

♦ Məlumatın toplanması, təhlili və monitorinqi nöqteyi-nəzərindən Təhsilin İdarəolunması üzrə İnformasiya Sistemlərinin təkmilləşdirilməsi;

♦ Təhsil sektorunun idarəolunmasmda şəffaflıq;

♦ Maliyyə effektivliyi;

♦ Təhsil alanların biliklərinin qiymətləndirilməsi;

♦ Mərkəz və region səviyyəsində təhsilin maliyyələşdirilməsi;

♦ Təhsil siyasətində ziddiyyətlərin azaldılması;

♦ Təhsilin planlaşdırılmasına və dövlət siyasətinin həyata keçirilməsinə vətəndaş cəmiyyətini, özəl sektoru və s. cəlb etmək.

**Abel MƏHƏRRƏMOV**

***Bakı Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor***

## XXI ƏSR: UNİVERSİTETLƏRİN CƏMİYYƏTDƏ YERİ VƏ ROLU

**Hörmətli həmkarlar, xanımlar və cənablar,**

İcazə verin, Sizi Azərbaycanın ən qocaman elm və təhsil ocağı olan Bakı Dövlət Universitetində salamlayım və Sizə Azərbaycan milli ənənəsi ilə «Xoş gəlmisiniz» deyim.

Bu gün universitetimizin həyatında əlamətdar bir gündür, çünki dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından olan YUNESKO-nun mötəbər nümayəndə heyəti unversitetimizə təşrif buyurmuşdur və sizinlə birlikdə, hörmətli həmkarlar, təhsil sahəsində aktual problemləri müzakirə edəcəklər.

Hörmətli həmkarlar! Bizim seminar təhsilə həsr olunmuşdur. Öncə istəyərdim ki, bu sözün mənim fikrimcə, hansı məna daşıdığını açıqlayım. İlk növbədə, bu elə bir təhsil olmalıdır ki, bu təhsili aldıqdan sonra hər bir fərd gələcəkdə artıq sərbəst olaraq işləsin və təhsilini davam etdirə bilsin. Bu şəxs təbiət və cəmiyyətin inkişaf qanunlarını bilməli, məntiqi düşüncə qabiliyyətinə malik olmalı, müxtəlif faktları təhlil edərək bir-biri ilə uzlaşdırmağı bacarmalı, sərbəst qərar qəbul etmək bacarığını mənimsəməlidir.

Məlumdur ki, elmin vətəni yoxdur. Fikrimcə, təhsil də müasir dünyada tam beynəlmiləlləşdirilmiş bir məfhuma çevrilir. Həm elm, həm də təhsil dünyada ən yeni nailiyyətləri özündə əks etdirməlidir. Elmi ölkə və ya milli mənsubiyyətə görə bölmək olmaz: alman elmi, rus elmi, yaxud Azərbaycan elmi demək olmaz, elm elmdir. Təhsil də eyni beynəlmiləl məqsədlərə xidmət edir.



Hal-hazırda dünyada qloballaşma prosesi davam etməkdədir. Onun tərkib hissəsi çox güclü inteqrasiya prosesləridir ki, onlar da öz növbəsində böyük üstünlüklərlə yanaşı, özlərində milli mədəniyyət və ənənələrin inkişafına böyük təhlükələr daşıyırlar. Bu səbəbdən qloballaşan dünyada təhsil ən vacib amil kimi çıxış edir, çünki məhz təhsil inteqrasiya proseslərinə qoşulmağa imkan verir, zamanla ayaqlaşdırır və digər ölkələrdən geri qalmamağı şərtləndirir, eyni zamanda da ölkələrə öz mədəniyyətinin milli özəlliklərini itirməmək imkanını yaradır.

Məhz buna görə sosial-iqtisadi tərəqqinin əsas şərti kimi qəbul edilən təhsilin rolu və əhəmiyyəti bu gün əvvəlkindən daha çox dərk olunmaqdadır. Əhalinin təhsil səviyyəsi hər bir ölkənin dayanıqlı inkişafının ən vacib amilidir.

Eyni zamanda qeyd olunmalıdır ki, qloballaşma şəraitində bu proseslərin dinamik şəkildə artan tələbatlarını ödəmək üçün cəmiyyətdə təcrübəli, kifayət qədər səviyyəli təhsil almış mütəxəssislərə daha böyük ehtiyac yaranır. Hal-hazırda universitetlər yüksəkixtisaslı mütəxəssis hazırlayan əsas ali təhsil müəssisələri olduqları üçün, belə bir şəraitdə onlar xüsusi əhəmiyyətə malik olmağa başlayırlar. Qloballaşma dövrünün tələblərinə cavab vermək üçün, fikrimizcə, yeni müstəqillik qazanmış ölkələrin, o cümlədən, Azərbaycanın universitetləri inteqrasiya proseslərində, professor-müəllim heyətinin və tələbələrin mobilliyinin artırılması, universitetlərin verdikləri diplomların tanınma məkanının ge-

nişləndirilməsi istiqamətində daha fəal olmalıdırlar. Diqqətlə baxsaq, bu məsələlərin bir-biri ilə sıx bağlı olduğunu görərik. Məlum olduğu kimi, müxtəlif regionlarda, bəzən isə hətta bir region çərçivəsində mütəxəssislərin hazırlanması üçün bir neçə yanaşma, üsul və tədris metodikasından istifadə edilir. Məhz bu müxtəliflik təhsil məkanında inteqrasiyanı ləngidən əsas amillərdən biridir, bu isə, öz növbəsində, professor-müəllim heyətinin və tələbələrin mobilliyinə mənfi təsir göstərir, universitet məzunlarının beynəlxalq əmək bazarma çıxışlarını məhdudlaşdırır və son nəticədə həmin universitetlərin imicinə xələl gətirir. Əlbəttə, müəyyən elitar universitet təbəqəsi mövcuddur ki, onların məzunlarmm işlə təmin olunması və diplomlarının dünyanın, demək olar ki, hər bir guşəsində tanınması problemi yoxdur. Bu universitetləri biz dünya standartlarına cavab verən universitetlər adlandırırıq. Onların, demək olar, hamısı yüksək inkişaf etmiş ölkələrin – ABŞ, İngiltərə, Almaniya, Fransa və digər aparıcı ölkələrin universitetləridir.

Burada bir faktı qeyd etmək, məncə, yerinə düşərdi: XIX əsrin sonlarında məşhur biznesmen və mesenat Con Rokfeller 40 il Harvard universitetinin rektoru olmuş Çarlz Eliotdan soruşduqda ki, dünya səviyyəli universitet yaratmaq üçün nə lazımdır, o cavab vermişdi: «bunun üçün 5 milyon dollar və 200 il vaxt lazımdır». O yanılırdı, çünki XX əsrin əvvəllərində Çikaqo universitetinin dünya şöhrətli ali təhsil müəssisəsinə çevrilməsi üçün cəmisi 20 il kifayət etdi. Lakin bunun üçün 50 milyon dollar vəsait sərf edilmişdi və bu vəsaiti də həmin Rokfeller ayırmışdı.

Universitetin fəaliyyəti mürəkkəb və çoxlu maddi vəsait tələb edən bir prosesdir. Hal-hazırda dünya standartlarına cavab



verən universitetin yaradılması 500 milyon dollar və ən əsası – düzgün idarəetmə tələb edir.

Dünya standartlarına cavab verən universitetin yaradılması üçün bu qədər maliyyə vəsaiti sərf etmək, əlbəttə ki, bir çox dünya ölkələri, o cümlədən yaxın keçmişdə müstəqillik qazanmış Azərbaycan üçün də asan deyil. Daha az vəsait tələb edən və məqsədəuyğun olan çıxış yolu – dünya və Avropa ali təhsil məkanında inkişaf etməkdə olan inteqrasiya proseslərinə aktiv şəkildə qoşulmaq, aparıcı universitetlərlə təcrübə mübadiləsi aparmaq, müxtəlif universitet qurumları, beynəlxalq təşkilatların təşkilati və maddi dəstəyi ilə həyata keçirilən layihə və proqramlarda iştirak etməkdir.

Hazırda Bakı Dövlət Universiteti dünyanın ən qabaqcıl təhsil müəssisələri ilə, o cümlədən Avropanın bir sıra universitetləri – Nyukasl (Böyük Britaniya), Zigen və Azad Berlin (Almaniya), Vyana (Avstriya), Varşava (Polşa), Nitsa və Monpelye (Fransa), Bilkənd (Türkiyə), Tokio (Yaponiya), Konstansa – «Ovidius» (Rumıniya), İndiana və Dulut universitetləri (ABŞ) və digərlərilə əməkdaşlıq edir, elmi əlaqələr saxlayır, birgə proqramlar və qrantlar üzərində işləyir. Universitetimiz Zalsburq Seminarının daimi iştirakçısı və Cənubi Qafqazda **dayaq nöqtəsidir**. Universitetimiz Avropa elm və təhsil məkanında həyata keçirilən TASİS-TEMPUS, «da Vinçi» proqramlarının iştirakçısıdır, Xəzəryanı ölkələr və Avro-asiya universitetlər assosiasiyalarının fəal iştirakçısı, onların İcra Şurasının üzvüdür. Bakı Dövlət Universiteti Qara dəniz regionunda ən nüfuzlu ali təhsil qurumu hesab edilən Qara dəniz Universitetlər Şəbəkəsinin aktiv üzvü olmaqla yanaşı, 2 il bu təşkilata başçılıq etmiş, bu dövr ərzində regionda

ali təhsil məkanında inteqrasiya istiqamətində yeni təşəbbüslərin meydana gəlməsində və reallaşmasında böyük rol oynamışdır.

Bakı Dövlət Universiteti Avropa Universitetləri Assosiasiyasının üzvüdür və Avropa universitetlərinin əksəriyyətini əhatə edən Boloniya prosesində **fəal iştirak edir**. Məlumdur ki, Boloniya prosesi, xüsusilə yeni müstəqillik qazanmış dövlətlər üçün, o qədər də yüngül inteqrasiya prosesi deyil. Buna baxmayaraq, biz bu yolda addımlamaqda **qərarlıyıq**.

Demək olar ki, Avropa məkanmda elm və təhsillə bağlı elə bir qurum yoxdur ki, universitetimiz onunla əməkdaşlıq etməsin. Belə ki, biz NATO-nun Elmi Komitəsi ilə də sıx əməkdaşlıq edirik, bir il bundan öncə NATO-nun Elmi Komitəsinin 44 nəfərdən ibarət nüfuzlu nümayəndə heyəti universitetimizdə «Elm vasitəsilə təhlükəsizlik» mövzusunda birgə seminar keçirmişdir. Hazırda bu qurumda ümumi həcmi 3 milyon ABŞ dolları olan «Keçmiş SSRİ-nin ballistik raketlərinin yanacağının zərərsizləşdirilməsi» adlı layihəmiz nəzərdən keçirilir.

Ümumiyyətlə, inteqrasiya proseslərinə fəal qoşulmaq külli miqdarda maliyyə vəsaiti tələb edən elmi araşdırmalarda da iştirak etmək imkanı yaradır. Misal üçün, Rumıniyanın Konstansa – «Ovidius» universiteti və Lazer Fizikası institutu ilə NANO texnologiyalar sahəsində əməkdaşlığımız universitetimizdə NANO elmi araşdırma mərkəzinin yaradılması ilə nəticələnmişdir.

Bu mərkəz əsasən qrantlar hesabına müasir avadanlıqla təchiz olunmaqdadır, yaratdığımız mərkəzin gələcəkdə Türkiyənin Bilkənd və bir neçə ABŞ universitetləri ilə də əməkdaşlığı nəzərdə tutulmuşdur.



Fikrimcə, Bakı Dövlət Universitetinin YUNESKO ilə əməkdaşlığı haqqında bir neçə kəlmə demək də yerinə düşərdi. İlk növbədə qeyd etmək istərdim ki, YUNESKO-nun Baş Direktoru cənab Koişiro Matsuura universitetimizin fəxri doktorudur. Eyni zamanda, YUNESKO-nun xoşməramlı səfiri, xanım Mehriban Əliyevanın Azərbaycan təhsilinə verdiyi töhfələri qeyd etməmək mümkün deyil. 132 məktəbin inşası birbaşa xanım Mehriban Əliyevanın təşəbbüsü və köməkliyi ilə həyata keçirilir. Birbaşa universitetimizin YUNESKO ilə əməkdaşlığına gəldikdə isə qeyd etməliyəm ki, YUNESKO-nun maliyyə dəstəyi ilə jurnalistika fakültəsində tədris telestudiyası 15 min ABŞ dolları məbləğində müasir avadanlıqla təchiz olunmuşdur, bir rizoqraf alınmışdır. Hazırda qeyd olunan fakültədə tədris radiostansiyasının da YUNESKO-nun dəstəyi ilə müvafiq avadanlıqla təchiz olunması istiqamətində işlər görülür. Həmçinin, YUNESKO-nun bilavasitə yardımı nəticəsində Azərbaycanın müxtəlif regionlarında çalışan televiziya və mətbuat orqanlarının işçiləri üçün 2 dəfə treninq kursları keçirilmişdir. Hazırda Bakı Dövlət Universiteti XX əsrin əvvəllərində əski əlifba ilə nəşr olunmuş qəzetlərin müəyyən qisminin latın əlifbasına köçürülməsi ilə bağlı layihəni YUNESKO-ya təqdim etmişdir. Bundan əlavə, universitetimiz ekologiya ilə bağlı biliklərin tədrisi və yayılması sahəsində əldə etdiyi nailiyyətlər üçün YUNESKO çərçivəsində Sultan Kavus mükafatının alınması üçün müsabiqənin iştirakçılarından biridir.

Əminəm ki, YUNESKO kimi nüfuzlu beynəlxalq təşkilatla universitetimiz arasında əməkdaşlıq qeyd etdiyim layihə və müsabiqədə iştirakla məhdudlaşmayacaq və biz gələcəkdə yeni-yeni layihə və təşəbbüslərlə YUNESKO-ya müraciət edəcəyik.

Hörmətli həmkarlar!

Yeni əsrin və üçüncü minilliyin başlanğıcını biz, bütün dünya xalqları kimi çox böyük **ümidlərlə qarşıladıq**. Dünyanın müxtəlif guşələrində olduğu kimi, biz də, ən müqəddəs arzu və ümidlərimizlə fəlakətli müharibələrsiz, çarəsi tapılmayan xəstəliklərsiz, səfalətsiz və daha ədalətli bir dünya nizamında **yaşamağı düşünürük**. Biz arzulayırıq ki, kiçik dövlətlərin gəncləri, o cümlədən Azərbaycan gəncliyi də, inkişaf etmiş dövlətlərdən olan həmyaşıdları kimi gələcəyə ümidlə baxsınlar, müharibə fəlakəti qorxusunu və doğma yurdun ərazi itkisi ağrısını hiss etmədən, sivilizasiyanın nailiyyətlərindən yararlansınlar, qloballaşan dünyada öz layiqli yerlərini tutaraq mənalı **həyat sürsünlər**.

Biz, təhsil işçiləri, bu arzuların həyata keçirilməsində böyük məsuliyyət daşıyırıq. Sizin hamınıza bu çətin və şərəfli yolda uğurlar arzulayıram.

Diqqətinizə görə çox sağ olun.



**Dendev BADARÇ**

*YUNESKO-nun Moskva bürosunun əməkdaşı*

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ALİ TƏHSİLİN PROBLEMLƏRİ

**Azərbaycan Respublikasının təhsil naziri hörmətli cənab Mərdanov!**

**Hörmətli həmkarlar,**

Azərbaycan Respublikasında təhsil problemlərinə həsr olunmuş bu ciddi konfransda çıxış etmək mənim üçün böyük şərəfdir. Son iki ay ərzində YUNESKO-nun iştirakı ilə Azərbaycan dövlətinin təhsil problemlərinə dair iki konfrans təşkil etməsi faktı ölkə rəhbərliyinin təhsilə böyük əhəmiyyət verməsinə dəlalət edir.

İlk növbədə mən YUNESKO-nun Moskva bürosu və bizim Azərbaycanla əməkdaşlığımız haqqında qısa məlumat vermək istəyirəm.

Bizim fəaliyyət dairəmiz kifayət qədər hərtərəflidir və mənə elə gəlir ki, bir məruzə çərçivəsində bunu tam əhatə etmək çətin olardı. Buna görə də mən təbiyyat və sosial elmləri kənara qoyaraq, fəaliyyətimizin yalnız üç istiqamətinə – təhsilə, mədəniyyətə, informasiya və kommunikasiyaya diqqət ayırmaq istəyirəm.

Beləliklə, təhsil sülhün möhkəmləndirilməsində, stabil inkişafın təmin edilməsində, zorakılıqla, aqressiv milliyyətçiliklə mübarizədə uzunmüddətli maraqların irəli sürülməsi üçün vacib kanallardan biridir. Belə ki, ölkənin gələcəyinə birbaşa investisiyaların qoyulması məhz bu sahədə həyata keçirilir.

Moskva bürosu YUNESKO-nun «Hamı üçün təhsil» strategiyasının məqsədlərinin həyata keçirilməsi üçün təhsilin bütün istiqamətlərində fəaliyyət göstərir. Son iki il ərzində büro təşviqat işləri aparmış və ODV üzrə Milli koordinatorlarla məsləhətləşmələr aparmaq və təhsil siyasəti üzrə bir sıra görüşlər keçirməklə klaster ölkələrində hamı üçün təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına daim yardım etmişdir. Büro mədəni dialoqa dəstək olmağa və stabil inkişafın özəyi kimi keyfiyyətli təhsil problemlərinin geniş və hərtərəfli görüntüsünü yaratmağa çalışır. YUNESKO nümayəndələrinin və MDB ölkələri təhsil nazirlərinin müştərək iclası ən çox nəzərəçarpacaq hadisələrdən biri olmuşdur. Burada YUNESKO-nun və MDB ölkələrinin təhsil sahəsində əməkdaşlığının əsas istiqamətlərini müəyyən edən qətnamə qəbul edilmişdir.

Dakarda fəaliyyət çərçivəsinin qəbul edilməsindən keçən beş il ərzində bizim büronun klaster ölkələrində təhsil sahəsi üzrə əhəmiyyətli irəliləyişə nail olunmuşdur. ODV inkişafının indeksinə əsasən klaster ölkələrində vəziyyət 0.914 və 0.969 rəqəmləri arasında dəyişir[1]. Azərbaycanın ODV inkişafının indeksi 0.930 göstəricisindən ibarətdir.

Moskva bürosunun reallaşmasında iştirak etdiyi ən əhəmiyyətli layihələr «Çeçen Respublikasında təhsilin bərpasına dəstək» və «VİÇ/QİÇS-in profilaktikası sahəsində təhsilin inkişafı», həmçinin Azərbaycanın Təhsil Nazirliyi ilə birgə həyata keçirilən «Azərbaycanda inklüziv təhsil» adlanır.

Cəmiyyətin stabil inkişafı üçün mədəni müxtəlifliyin və mədəni irsin qorunması üzrə hazırlanmış layihələr mədəniyyət sahəsində YUNESKO-nun Moskva bürosunun fəaliyyətinin əsas göstəricisidir.

---

[1] Hamı üçün təhsil. Keyfiyyət imperativi. YUNESKO, 2004-cü il, Paris



Büronun Mədəniyyət sektorunun fəaliyyəti ilk növbədə dialoq və inkişaf naminə mədəni müxtəliflik haqqında YUNESKO-nun Ümumi Bəyannaməsinin prinsiplərinin həyata keçirilməsinə və həmçinin mədəni irsin qorunması haqqında YUNESKO konvensiyalarının praktiki tətbiqinə yardım göstərilməsinə yönəlmişdir.

Büro hamının biliklərə yiyələnməsi ideyasına dəstək vermək məqsədilə kommunikasiya və informasiya sahəsi üzrə layihələrə böyük diqqət ayırır. Təcrübədə bu məqsəd kommunikasiyanın inkişafı, həmçinin təhsil, elm və mədəniyyət sahələrində informasiya və kommunikasiya texnologiyalarından istifadənin genişlənməsi vasitəsilə həyata keçirilir. Fikir azadlığına xüsusi diqqət yetirilir, çünki YUNESKO söz və mətbuat azadlığını qorumaqda səlahiyyətli olan BMT-nin yeganə təşkilatıdır. Biz vətəndaş cəmiyyətinin formalaşmasının vacib elementi kimi mediatəhsilin inkişafına böyük əhəmiyyət veririk. İdeyaların azad yayılmasını, informasiya və biliklərə hamının yiyələnməsini təmin etməklə YUNESKO gələcək sosial quruluş konsepsiyasının, yəni informasiya və bilik cəmiyyətinin formalaşmasında unikal rol oynamaqdadır.

Bizim köməyimiz ilk növbədə milli resursların və səylərin səfərbərliyi üçün bir stimul kimi qəbul edilməlidir. Bu, bizim mandat çərçivəsində dünyanın ən qabaqcıl nailiyyətlərini əsas götürməklə effektiv və ixtisaslı dəstəyimiz vasitəsilə həyata keçiriləcəkdir.

İndi isə icazə verin, çıxışımın əsas mövzusuna keçim.

Getdikcə daha da aşkarlanır ki, milli ali təhsil sistemləri qlobal proseslərdən və tendensiyalardan, dünya əmək bazarının tələblərindən kənarda inkişaf etmək iqtidarında deyildir. Ayrı-ayrı ölkələrin ali təhsil ocaqlarının islahatı və inkişafı məsələlərini həll edərkən artıq milli amillərdən istifadə etmək kifayət etmir.

«XXI əsrdə ali təhsil: yanaşmalar və praktik tədbirlər» adlı Ümumdünya Konfransının Bəyannaməsində qeyd edilir ki, ali təhsil sahəsində keyfiyyətin yaxşılaşdırılması kimi vacib problemin həlli üçün tələb olunur ki, «ali təhsil beynəlxalq ölçüyə: milli dəyərlərin və şəraitin nəzərə alınması ilə yanaşı, bilik mübadiləsinə, interaktiv şəbəkələrin yaradılmasına, müəllim və tələbələrin mobilliyinə, beynəlxalq elmi-tədqiqat layihələrinə malik olsun».

Qloballaşma və bilik iqtisadiyyatı kontekstində ali təhsil, əgər onun bilik generatoru və onun yayılması vasitəsi funksiyalarını nəzərə alsaq, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə milli inkişafın aparıcı qüvvəsi kimi qəbul edilir. Qloballaşmanın dörd əsas aspektinin nəzərdən keçirdiyimiz məsələlərə birbaşa aidiyyatı vardır:

- Bilik cəmiyyətinin artmaqda olan əhəmiyyəti;
- Təhsil xidmətləri ilə ticarəti də əhatə edən yeni ticarət razılaşmalarının hazırlanması;
- İKT-nin inkişafı;
- Bazarın və bazar iqtisadiyyatının artmaqda olan rolu.

Sadalanan aspektlər öz növbəsində ali təhsil sahəsində yeniliklərin əmələ gəlməsində katalizator rolunu oynayır. Aşağıdakılar buna misal ola bilər:

a) yeni provayderlər qismində korporativ universitetlərin yaranması;

b) məsafədən və virtual növlər də daxil olmaqla təhsilin yeni təmin formaları;

c) ixtisaslaşmanın və təhsil haqqında şəhadətnamələrin geniş diversifikasiyası;

ç) tələbələrin, proqramların, provayderlərin və layihələrin sərhədlərdən kənara çıxan mobilliyi;



d) həyat boyu təhsilə diqqət;

e) ali təhsil sahəsində xidmətlərə yatırılan investisiyaların həcmcə artması.

Bir çox inkişaf etməkdə olan və keçid iqtisadiyyatı dövrünü yaşayan ölkələrdə dövlət ali təhsili dəstəkləməyə kifayət qədər vəsaitə malik olmadığı üçün bu sahəyə əlavə resurs cəlb edilməsi imkanı kimi xarici və özəl təhsil xidmətlərinə müraciət edir. Belə ki, Çində tələbələrin 36%-i özəl ali təhsil müəssisələrində oxuyur. Özəl ali təhsil ocağına malik olmayan Polşada hazırda 180 özəl institut və universitet vardır. YUNESKO-nun apardığı tədqiqatlara görə İordaniya, Tunis və Yəməndə yeni və ən yeni universitetlərin 55%-i təhsil xidmətləri sahəsində yeni provayderlərin payına düşür. Yeni provayderlərin spektri xeyli dəyişmişdir; indi ənənəvi universitetlərlə yanaşı, elektron təhsillə məşğul olan virtual təşkilatlar, şəxsi kompaniyalar və beynəlxalq korporasiyalar mövcuddur. Şotlandiyanın «Nyus» korporasiyası özünün Worldwide Learning Ltd. təşkilatı vasitəsilə Şimali Amerikanın, Yaxın Şərqin, Malayziya və Çinin ali təhsil bazarına çıxmaq üçün Şotlandiyanın 15 universiteti və 20 kommersiya kompaniyalarından ibarət konsorsium yaratmışdır. Dünya Bankı tərəfindən yaradılan Afrika Virtual Universiteti qitənin 18 ölkəsində təhsil xidmətləri göstərən müstəqil qeyri-kommersiya təşkilatına çevrilmişdir. 1997-ci ildən etibarən bu universitet texnologiya, biznes və təbiyyat elmləri sahəsində 24000-dən artıq tələbə hazırlamışdır. OESR ölkələrində İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının hesablamalarına görə ali təhsil bazarı illik 30 milyard dollar təşkil edir. ABŞ-da təhsil xidmətlərinin eksportu illik 10 milyon dollardır. Apollo, Sylvan Learning kimi kompaniyalar artıq fond birjasına çıxmışdır.

Hazırda 2 milyondan artıq tələbə xaricdə təhsil alır və Britaniya Şurasının proqnozuna görə bu rəqəm 2005-ci ilə qədər iki dəfə, 2025-ci ilə qədər isə daha iki dəfə artacaqdır.

Qloballaşmanın ali təhsilə göstərdiyi potensial təsir yeni imkanlarm və tələbatların yaranmasına şərait yaradır. Bu da siyasətdəki prioritetlərdən, ölkələrin malik olduqları resurslardan və digər xüsusiyyətlərdən asılıdır.

Potensial imkanlar müxtəlifdir. Bunlar təhsil xidmətlərinin spektrinin genişlənməsi və onlardan sərbəst istifadə imkanları, bilik iqtisadiyyatının dəstəklənməsi, birgə dərəcələrin hazırlanması, ixtisaslaşmaların uyğunlaşması sahəsində iş, bazar iqtisadiyyatına yönəlmiş yanaşmaların rolunun artırılması və diversifikasiyası və akademik təşkilatlar üçün yeni iş şəraitinin yaradılmasından ibarətdir.

Potensial tələblər də həmçinin çoxsaylı və müxtəlifdir. Bunlardan təklif edilən xidmətlərin keyfiyyəti barəsində narahatçılıq, ixtisaslı kadrların fiziki və virtual axını problemi, milli siyasət qurmaq sahəsində dövlətin zəifləməsi, bazar münasibətləri şəraitinə uyğun proqramların, xüsusən də biznes və informasiya texnologiyaları sahəsində, artırılması məsələlərini qeyd etmək olar.

O da doğrudur ki, bu proseslər bir ölkə üçün yeni imkanlar açdığı halda, digəri üçün təhlükə törədə bilər. Ancaq hamı üçün lazımlısı milli səviyyədə siyasi mexanizmlərin yaradılması vasitəsilə qloballaşmadan xeyir götürməkdir.

Mən əminəm ki, zəngin mədəni irsə, qədim sivilizasiyalara malik olan Azərbaycanda ali təhsil sahəsinin Avropa təhsil sistemi çərçivəsində inkişafı ölkənin stabil tərəqqisində və qara qızılın intellektual qızıla çevrilməsində həlledici faktor olacaqdır.



**Hamlet İSAXANLI**

***Xəzər Universitetinin rektoru***

## TƏLƏBƏ HƏYATININ TƏŞKİLİ: MÜASİR BAXIŞLAR VƏ TƏCRÜBƏLƏR

Ali məktəb – öyrətmək və öyrənmək məqsədi ətrafında birləşmiş insanların yaşadığı bir məkandır, yaşayış məntəqəsidir, ocaqdır, müəyyən mənada şəhərdir. Bu şəhərin varhğı və fəaliyyəti uyğun inzibatçılığın və idarəçiliyin, təsərrüfat həyatının və xidmət sektorunun qurulmasını tələb edir. Ali məktəbin əsas əhalisi tələbələrdir. Ali məktəbin tipindən, yerləşdiyi ölkədən, böyük-kiçikliyindən asılı olaraq tələbələrin sayı müəllim və idarəetmə-xidmət bölməsində çalışanların ümumi saymdan 10-15 dəfə çox olur. Ali məktəb qocaman olsa belə həmişəcavandır, sakinlərinin əksəriyyəti gənclərdir.

Tələbələrin böyük hissəsi həyat təcrübəsi az olan gənclərdir, oxumaq-öyrənməklə yanaşı onların hər cür qayğıya və yardıma ehtiyacı var. Yaxşı ali məktəb elmi araşdırmalarla, müasir və keyfiyyətli tədrislə yanaşı tələbələrə dayaq duran, onlara hər cəhətdən kömək edə bilən xidmət sistemi ilə də seçilir. Bu köməyin, bu xidmətin nəticəsində tələbələrdə həyati bacarıq və vərdişlər inkişaf etdirilir, onların günləri daha dolğun və səmərəli keçir, onlar iş həyatına daha hazır vəziyyətə gəlirlər.

**Tələbə mərkəzli təhsil** modeli də tələbələrlə fəal işin qurulmasını tələb edir. Tələbələrin bir qrup şəklində müəllimin ətrafında birləşməsi (müəllim mərkəzli sistem) deyil, hər bir tələbənin marağının ayrı-ayrılıqda təmin edilməsi, o cümlədən

tədrisdə tələbənin fəal iştirakı, müəllimin tələbələrlə yanaşı çalışması, onları sadəcə yönəltməsi ön plana çəkilir. Kredit yığma (qazanma) əsasında qurulan təhsil modeli məhz tələbə mərkəzli sistemdir, bu sistemdə hər tələbənin yalnız özünə məxsus irəliləmə trayektoriyası olur. 2010-cu ilə kimi yaradılması nəzərdə tutulan **Avropa Ali Təhsil Məkanının** və **Boloniya Prosesi** adlanan bu yolun mühüm xətlərindən biri də bu işdə tələbələrin geniş iştirakını təmin etməkdir. Təəssüf ki, bu iştirak Avropa ölkələrinin çoxunda lazımi səviyyədə deyil. Bunun mühüm səbəblərindən biri təhsili idarə edənlər və təhsilə yardım edənlər arasında tələbələrin ali təhsildə iştirak edən tərəf kimi deyil, yalnız istifadəçi və ya müştəri kimi qəbul edilməsidir.

Ali məktəbin tələbələrlə və ya gələcək tələbələrlə ilk təması onların **ali məktəbə qəbulu** ərəfəsində baş verir. Ali məktəblər şəbəkəsi bütövlükdə götürüldükdə tələbə olmaq istəyənlərin hamısının arzusunu yerinə yetirə bilirmi? Bu arzunun həyata keçirilməsi bir sıra ölkələrdə, xüsusilə də inkişaf etmiş ölkələrdə dövlət proqramı xarakteri daşıyır, orta məktəbi bitirənlərin hər birinə ali məktəbə daxil olmaq imkanı yaratmaq, bu mənada onlara dayaq olmaq məsələsi ortaya qoyulur. ABŞ-da uyğun yaş həddində olanların 81 faizi ali məktəb tələbəsidir, bu sahədə ABŞ yalnız Cənubi Koreyadan azca geridir, elm və təhsilə çox geniş maddi dəstək verən bu Asiya ölkəsində ali təhsilin genişliyinin bu göstəricisi 82 faiz təşkil edir. Bu faiz Kanadada 59, Avropa Birliyində 52, Yaponiyada 49-dur (Azərbaycanda bu faiz 15-20% ətrafında ilişib qalır).

Göründüyü kimi, yüksək **inkişaf etmiş ölkələrdə** də ali təhsil almaq arzusunda olan, amma bunu gerçəkləşdirə bilməyənlər az deyil. Onlara mane olan əsas amil **maliyyə çətinliyidir**. Məsələn, ABŞ-da ödənişsiz ali təhsil mövcud olmadığı üçün imkansızlar yalnız uyğun fondlardan uzun müddətli və aşağı faizli (illik 6-8% ətrafında) borc götürməklə təhsil ala bilir. Avropa Birliyi və Yaponiyada dövlət tələbə olmaq, ali məktəbə daxil olmaq istəyənlərin yalnız bir qisminin xərcini öz üzərinə götürür, digərləri ya ödənişli təhsil almalı olur, ya da kənarda qalır. Təbii ki, maliyyə cəhətdən problemi olmayanlar özlərinə ali məktəb seçməkdə də böyük problemlə üzləşmirlər. **İnkişaf etməkdə olan ölkələrdə** isə həm dövlətin ali təhsilə ayırdığı xərclər azdır (belə xərclərin azalması kiçik istisnalarla ümumdünya xarakteri daşıyır), həm hökumət tələbələrə əlverişli şərtlərlə borc vermir, həm də yoxsulluq dərəcəsi yüksək olduğu üçün gənclərin böyük qismi ödənişli təhsil almaq iqtidarında deyil. Üstəlik, ailə büdcəsi ödənişli təhsil almağa imkan verən gənclərin də bir qismi hökumətin (məmurların) mərkəzləşdirmə ənənələrini davam etdirmək arzusunun qurbanına çevrilir, bir imtahan nəticəsi əsasında «hazırlıqsız» hesab edildikləri üçün ali təhsil almağa buraxılmırlar (hərçənd ki, onları oxutmaq istəyən müxtəlif səviyyəli ali məktəblər mövcuddur).

**Ali məktəblərə qəbul mexanizmi** necədir? Şimali və Mərkəzi Avropada ali məktəblərə qəbul əsasən abituriyentlərin orta məktəb imtahanlarında aldıqları orta qiymətə görə, əksər hallarda məzunluq imtahan qiymətlərinə görə aparılır, yəni xüsusi qəbul imtahanları keçirilmir. Orta məktəb məzunluq imtahanları olmayan ölkələrdə tələbə qəbulu ali məktəbə qəbul imtahanları vasitəsi ilə aparılır, bəzi hallarda isə qəbul üçün hər iki imtahanın nəticəsi nəzərə alınır. Əlbəttə, özəl ali

məktəblərə tələbə qəbulunu hər yerdə (Amerika, Avropa, Yaponiya...) həmin ali məktəblər özü aparır (Türkiyə və Azərbaycan kimi ölkələr istisna olmaqla; Türkiyədə müəyyən yumşalma müşahidə edilməkdədir).

Ali məktəbə qədəm basan tələbələrlə ilk mühüm iş **tələbə oriyentasiya günlərinin** keçirilməsidir, ali məktəb barədə tələbələrə bələdçilik etməyə, onları istiqamətləndirməyə ehtiyac duyulur. Ali məktəblə ümumi tanışlıq, dərslərlə əlaqədar qaydalar (dərslərə davamiyyət, kredit sistemində dərslərə yazılma, dərslərin bir-birindən asılılıq zənciri, ümumtəhsil və ixtisas fənləri, icbari və seçmə fənlər...), kitabxana, yataqxana, idman sahələri... ilə tanışlıq, davranış prinsipləri və bu kimi məsələlər barədə tələbələrdə əvvəlcədən düzgün təsəvvür yaradılması tələbə həyatının təşkilində xüsusi rol oynayır. Oriyentasiyanın vizual və şifahi tərəfi ilə yanaşı, yazılı və elektron materialların mövcudluğu vacibdir – tələbələrin **Universitet web-sitesi** (internet səhifəsi), **Universitet kataloqu**, müxtəlif **qayda və məlumat kitabçaları, o cümlədən tələbə yaddaş kitabçası** ilə yaxından tanış olması zəruridir.

Dərslər başlanarkən tələbələr hər fənn üzrə ali məktəbin web-sitesi vasitəsilə əvvəlcədən və ya müəllim tərəfindən ən geci ilk dərs zamanı dərsin məzmun, forma və imtahan prinsipi barədə məlumatların daxil edildiyi **fənn-dərs planı və ya syllaby** ilə tanış edilməlidir (ilk dərs zamanı bu iş müəllim tərəfindən görülür). Dərs planı müəllimlə tələbələr arasında bağlanmış müqavilə kimi də şərh oluna bilər – müəllim öz qaydalarını açıq şəkildə və rəsmi olaraq elan edir və bu qaydalar semestr ərzində və imtahan dövründə müəllim və tələbə üçün



birgə hərəkət planı və qanun halını alır. Tələbələrin imtahanda köçürməyə cəhd etməməsi üçün ən effektli mübarizə üsulu onlara köçürmənin çox ağır nəticələr verə biləcəyini başa salmaqdır; əslində dərs planmda müəllim bu barədə də öz fikrini yaza bilər.

Tələbələrə **maliyyələşmə mənbələri**, o cümlədən dövlət qaynaqları, bank sistemi, borc və kreditgötürmə imkanları, yerli və beynəlxalq fondlar, adlı və xüsusi məqsədli təqaüdlər və s. barədə məlumat və məsləhətlərin verilməsi inkişaf etmiş ölkələrdə adi hala çevrilmişdir, keçid dövründə olan ölkələrdə isə bu cür xidmətlər yenidir və çox zaman məzmun cəhətdən kasıbdır. Ödənişli təhsilə geniş yol verən və keçid dövründə olan dövlətlərin böyük qismi, təəssüf ki, tələbələrə dayaq ola biləcək maliyyələşdirmə və borcgötürmə sistemi hazırlamayıb. **Neft Fondu** mövcud olan ölkələrdə ali təhsil almaq istəyənlərə faizsiz və ya çox aşağı faizlərlə borc verilməsi məsələsi bu fondun çərçivəsində mümkündür və həll oluna bilər; şübhə yoxdur ki, savadlı mütəxəssislərin yetişdirilməsi ölkənin strateji inkişafını müəyyən edən ən əsas amillərdən biridir.

Tələbələrə qrant və borc verilməməsi və ya bu maliyyənin yaşayış üçün kifayət etməməsi əyani təhsil alan tələbələrin böyük qisminin iş axtarmasına və nəticədə işləməsinə gətirib çıxarır. Bu isə öz növbəsində tədrisin təşkilində bir sıra yeni məsələlərin həll edilməsini zərurətə çevirir. Əyani tələbələrin Danimarkada 75%-i, Almaniyada 68%-i, Avstriyada 66%-i, Fransada 46%-i işləyirlər. Avropa ölkələrində (Danimarka xoş istisna olmaqla) **işləyən tələbələrin** böyük əksəriyyəti öz ixtisasları üzrə işləmirlər.

Tələbələrə **psixoloji və hüquqi yardımların** göstərilməsi də birinci dərəcəli məsələlərdəndir. Ailədə, ali məktəbdə, yataqxana və ya yaşadığı evdə, yoldaşları arasında, eləcə də maliyyə sahəsində əmələ gələn problemlər böyüyərək tələbəni böhrana və ağır vəziyyətə sala bilər. Vaxtında uyğun məsləhətin verilməməsi, böhrandan çıxış yolunun göstərilməməsi, lazımi tədbirin görülməməsi adətən ali məktəbin bu sahəyə biganə yanaşmasından və ya ali məktəbdə bu cür xidmətlərin olmamasından, yaxud işləməməsindən irəli gəlir.

Tələbələrin **idmanla** və **incəsənətlə** məşğul olması həm tələbə həyatının canlı və məzmunlu keçməsinə kömək edir, həm ali məktəblə tələbəni bir-birinə yaxınlaşdırır və sevdirir. Ali məktəbdaxili, ölkə və beynəlxalq miqyaslı yarışlar, müsabiqələr, festivallar tələbənin və ali məktəbin tanınmasında az rol oynamır. İdman və xüsusilə incəsənət məşğələlərinin bir qismi tədris planına daxil ola bilər, digər qismi isə adətən maraq dairəsi və üzvlük əsasında dərnəklər, qruplar, klublar şəklində fəaliyyət göstərə bilər.

Ali məktəbdə fəaliyyət göstərən **tələbə birlikləri** tələbələrin həyatının təşkilində və ümumiyyətlə ali məktəbin həyatında mühüm rol oynayır. Qərb dünyasında bir ali məktəb daxilində qeydiyyatdan keçmiş yüzlərlə tələbə birlikləri, klub və təşkilatları fəaliyyət göstərir. Ağla gələn hər ideya bir birliyin əsasında dayana bilər– tədrisdə nümunə, vətəndaşlıq–yerliçilik, siyasət, din, elmin müxtəlif sahələrinə maraq, idman, mədəniyyət və incəsənət kimi. Çox zaman üç tələbənin bir fikrə gəlməsi yeni bir birliyin yaranması üçün kifayət edir. Tələbə cəmiyyətlərinin müstəqilliyi çox vacibdir, sosializm sistemindən dönən ölkələrdə bu sahədə problemlər daha çoxdur. Qeydə alınmış (ali məktəb şurası və ya digər idarəetmə qurumu tərəfindən) müxtəlif tələbə qurumlarına ali məktəb müəyyən ilkin maliyyə vəsaiti ayırır və şərait yaradır, sonrakı fəaliyyətində isə bu qurumlar öz-özünü maliyyələşdirməyə, kənardan maliyyə vəsaitləri cəlb etməyə çalışır. Tələbə birlikləri liderlik, özünüidarə kimi xüsusiyyətlərin və bir sıra bacarıq və vərdişlərin, o cümlədən biznes vərdişlərinin inkişafında da rol oynayır.



Ali məktəbdə **beynəlxalq tələbə mərkəzinin** fəaliyyəti, yəni beynəlxalq tələbə xidmətinin təşkili xarici tələbələrin ali məktəbin həyatına rahat daxil olmasını asanlaşdırır, eyni zamanda ali məktəbi müxtəlif mədəniyyətlərin, irq, din və dillərin bərabər mövcud olduğu və bir-birini zənginləşdirdiyi, hətta bir-birini həvəsləndirdiyi məkana çevirir, tələbələrin digər xalqlara anlaşıqlı yanaşmasına kömək edir. Bu mərkəzin və ya digər səlahiyyətli qurumun vasitəsilə tələbələrin digər ali məktəblərdən, xüsusilə də xarici universitetlərdən kredit yığmaq və ya xarici universitetlərə **kredit transfer etmək** imkanları da araşdırılır.

**Fiziki qüsurları olan tələbələrin** xüsusi qayğıya və xidmətə ehtiyacı olduğu aydındır. Təəssüf ki, keçid dövründə olan ölkələrdəki ali məktəblərin bu halda da öyünməli cəhətləri çox deyil.

Ali məktəblərdə tələbələrə və yeni məzunlara dayaq olan ən vacib xidmətlərdən biri **peşə-məşğulluq mərkəzlərinin** (career centers) fəaliyyət göstərməsidir. Tələbələri işədüzəlmə psixologiyası və üsulları ilə tanış edən bu mərkəz işverən şirkət və təşkilatlarla yuxarı kurs tələbələri arasında əlaqələr yarat-

mağa, onları bir-birinə yaxınlaşdırmağa çalışır. Bu işdə **ali məktəbin məzunları** da həlledici rol oynayır. Məzunlarla ünsiyyətdə olmaq və onlarm uğurlarını mütəmadi izləmək ali məktəbin inkişafmda əvəzi olmayan güc hesab olunur. **Məzunlar assosiasiyasının** qurulmasına və fəaliyyətinə kömək etmək də ali məktəbin ciddi işlərindən biridir.

**Ali məktəbin idarəedilməsində**, o cümlədən də **keyfiyyətin artırılması** prosesində tələbələrə müəyyən rol ayrılmalıdır. Ali məktəb və fakültə şuralarında tələbə təşkilatlarının yer alması, tələbələr arasında hər semestr keçirilən anonim sorğular vasitəsilə fənn, müəllim və s. haqqında tələbələrin fikrinin öyrənilməsi idarəetmə və qərar qəbuletmədə tələbələrin müəyyən iştirakına gətirib çıxaran yollardandır.



**Elman MƏMMƏDOV**
***Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin direktoru***

**Hörmətli cənab nazir Misir Mərdanov!**
**Hörmətli Hanaa Singer!**
**Hörmətli Mir Əsgər Hüseyn!**
**Hörmətli qonaqlar!**
**Xanımlar və cənablar!**

Mən Sizi Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin kollektivi adından salamlayıram və «Xoş gəlmisiniz» deyirəm!

Bu gün bizim Kompleksdə YUNESKO xətti ilə keçirilən mötəbər konfransın təşkil edilməsi Kompleksin tarixində ən əlamətdar hadisələrdən biridir və bunu bizə göstərilən böyük etimad kimi qəbul edirik.

Heydər Əliyev adma Müasir Təhsil Kompleksi 2001-ci ilin sentyabr ayında, Azərbaycanın dahi şəxsiyyəti, ulu öndərimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə açılmışdır. Ulu öndərimiz Heydər Əliyev Kompleksin açılışında iştirak etmiş, geniş nitq söyləmiş və beləliklə, Azərbaycanda özəl orta ümumtəhsil sisteminin, yeni təhsil istiqamətinin əsası qoyulmuşdur.

